AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ

*Əlyazması hüququnda*

**ŞƏLALƏ Xalid qızı MƏMMƏDOVA**

# İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ İNTERAKTİV METODLARDAN İSTİFADƏ ETMƏKLƏ ŞAGİRDLƏRDƏ ŞİFAHİ NİTQİN İNKİŞAFI

**HSM -060102- Dil və ədəbiyyatın tədrisi metodikası və metodologiyası**

**(ingilis dili)**

**Magistr elmi dərəcəsi almaq üçün təqdim edilmiş**

**DİSSERTASİYA**

**Elmi rəhbər:** ***Səbinə Əlövsət qızı Hüseynova***

***ped.f.d.***

**BAKI-2022**

## MÜNDƏRİCAT

**GİRİŞ......................................................................................................3**

**Fəsil 1. İngilis dili dərslərində interaktiv metodlardan istifadə etməklə şagirdlərə şifahi nitqin tədrisinin nəzəri əsasları............................................7**

1.1. Orta məktəb şagirdlərinin ingilis dilində şifahi nitqin tədrisinin psixolinqvistik xüsusiyyətləri........................................................................ 7

1.2. Şagirdlərdə İngilis dilinin tədrisində şifahi nitq bacarıqlarının inkişafı 15

1.3. İnteraktiv metodlarla İngilis dilinin tədrisinin vəziyyəti ....................... 25

**Fəsil 2. İngilis dili dərslərində interaktiv tədris metodlarından istifadə......37**

2.1. İnteraktiv metoddan istifadə texnologiyası .......................................... 37

2.2. İnteraktiv tədris metodlarının təsnifatı ................................................ 47

2.3. İngilis dili dərslərində interaktiv metodlardan istifadənin səmərəliliyinin öyrənilməsinə dair eksperimental tədrisin nəticələri ..................................... 58

**NƏTİCƏ.....................................................................................................69**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT..........................................................72**

# GİRİŞ

**Mövzunun aktuallığı.** Dil, insan şüuru və təfəkkürü ilə birlik və qarşılıqlı əlaqədə işləyən ən mürəkkəb işarələr sistemidir. Dil danışanların şüurunda mövcud olur. Dil insanın şüuruna kənardan aydın şəkildə nüfuz edir və ətrafdakı insanlar tərəfindən istifadə edildiyi üçün şüura nüfuz edir. Onlardan nümunə götürərək insanın özü də bundan istifadə etməyə başlayır.

Hər kəsə məlumdur ki, ingilis dili bütün dünyada beynəlmiləl bir dil statusuna malikdir. Dünyanın elə bir sahəsi yoxdur ki, orada ingilis dili istifadə olunmasın. Dünya tarixində gedən mürəkkəb hadisələr və proseslər nəticəsində ingilis dili dünyanın bir çox hissəsinə yayılmış və hal hazırda aktiv şəkildə istifadə olunmaqdadır. İngilis dilindən təkcə şifahi və yazılı ünsiyyət vasitəsi kimi yox, eləcə də digər müxtəlif sahələrdə istifadə olunur ki, buna misal olaraq beynəlxalq biznes, diplomatiya və internet şəbəkəsini göstərə bilərik. Bir sıra ölkələrdə ingilis dili ikinci xarici dil kimi öyrənilir. Bu baxımdan məktəblilərin hələ kiçik siniflərdə oxuyarkən bu dil ilə tanış olması daha məqsədəuyğun hesab olunur.

XX əsrin sonlarından etibarən öz müstəqilliyini qazanan Azərbaycan Respublikasının qarşısında çox çətin və məsuliyyətli vəzifələrdən biri də təhsil sisteminin inkişaf etdirilməsi və beləliklə yeni qurulmuş dövlətimizin inkişafını təmin etmək idi. XXİ əsrin əvvəllərində ölkəmizdə ən müasir təlim metodlarından istifadəyə keçid başlanmış, təhsil sisteminə qayğı artmışdı.

Ayrı-ayrı təhsil sahələrinin inkişafı ilə bağlı mövcud vəziyyətin təhlil edilməsi ilə işlənib-hazırlanmış və təsdiqlənmiş proqramların həyata keçirilməsi ilə təhsil sisteminin müasir dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirilməsi, təhsilin məzmununun yenilənməsi və beləliklə, bütün bunlara uyğun yeni dərslik siyasətinin tətbiq edilməsi, öyrənənlərin əldə etdikləri müvəffəqiyyətlərin qiymətləndirilməsi əsasında yeni üsul və texnologiyaların tətbiq edilməsi, əmək bazarının tələbatını ödəyəcək uyğun kadrların hazırlanmasının həyata keçirilməsi, təhsil müəssisələrinin İKT vasitələri ilə təmin olunması və bu kimi bir çox mühüm uğurlar əldə edilmişdir. Bütün bu inkişaf Ulu Öndər Heydər

Əliyevin bünövrəsini qoyduğu siyasi, sosial-iqtisadi, eləcə də mədəni-maarif kursunun nailiyyətləridir. Ulu Öndər tərəfindən əsası qoyulan bu inkişaf kursu ölkəmizin sabiq prezidenti İlham Əliyev müvəffəqiyyətlə davam etdirilir.

İngilis dilinin bütün dünyada artan nüfuzu, onun tədrisini zəruri hala gətirmişdir. İngilis dilinin effektiv tədrisi üçün daima yeni metod və texnikalar işlənib hazırlanır, çalışmalar sistemi yaradılır. Hazırda mövcud metod və texnikalar içərisində ən aktual olanı interaktiv təlim metod və texnikalarıdır ki, təqdim edilmiş dissertasiya işində də bu məsələ araşdırılaraq müəyyən nüanslar açıqlığa qovuşdurulmuşdur. Bütün bu sadalananlar mövzunun aktuallğını bir daha sübut edir.

**Problemin öyrənilmə dərəcəsi.** Dissertasiya işinin mövzusunu "İngilis dili dərslərində interaktiv metodlardan istifadə etməklə şagirdlərdə şifahi nitqin inkişafı" təşkil edir. Tədqiqat işini yerinə yetirərkən aşkar edilmişdir ki, interaktiv metodlarla bağlı istər ölkəmizdə, istərsə də xarici elmi ədəbiyyatlarda çoxsaylı kitablar, tədqiqat işləri, elmi məqalələr və s. mövcuddur. Bu mövzu ölkəmizdə Z.Veysova, Ə.Ağayev, S.Abbasova, H.Hacızadə, F.Bünyatova və bir çox başqa tədqiqatçı dilçi və müəllimlərimiz tərəfindən, J.Harmer, D.Hayms, H.D.Braun, B.Blum və bir çox digər dilçi alimlər tərəfindən tədqiq edilərək çoxsaylı məlumat mənbələri hazırlanmış, bundan əlavə dəfələrlə buraxılış və dissertasiya işlərində tədqiqat obyekti olmuşdur.

Bununla belə, bu qədər araşdırılmasına, haqqında bu qədər kitabların, elmi məqalələrin, tədqiqat işlərinin olmasına baxmayaraq, hələ də bu mövzu ilə bağlı həll olunmamış məsələlər qalmaqdadır. Təqdim edilən dissertasiya işində bu məsələlərdən biri olan interaktiv təlimin şifahi nitqin inkişafında istifadəsini araşdıraraq həll etməyə çalışılmışdır.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin obyekti təlim prosesində interaktiv metodlar, predmeti isə şagirdlərdə şifahi nitq bacarıqlarının inkişafı üçün bu metodların istifadəsi yollarıdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas ***məqsədi*** şifahi nitq bacarıqlarının inkişafında interaktiv təlim metodlarından istifadəni müəyyənləşdirməkdir. Tədqiqat işinin ***vəzifəsinə*** aşağıdakılar daxildir:

- Orta məktəb şagirdlərinə xarici dildə şifahi nitq bacarıqlarının öyrədilməsinin psixolinqvistik xüsusiyyətlərini;
- Şagirdlərdə İngilis dilinin tədrisində şifahi nitq bacarıqlarının inkişafını;
- İnteraktiv metodlarla İngilis dilinin tədrisinin vəziyyətini;
- İnteraktiv metoddan istifadə texnologiyasını;
- İnteraktiv tədris metodlarının təsnifatını və
- Tədqiqat işi ilə bağlı eksperimental araşdırmanın nəticələrini təqdim etmək.

**Tədqiqatın fərziyyəsi.** Xarici dil öyrənən şagirdlərin şifahi nitq səriştələrinin inkişafında interaktiv təlim metodlarının tətbiqi o zaman uğurlu həyata keçirilər ki, şagirdlərin müstəqil öyrənmə qabiliyyətinə inanan, lazımi rəhbərlik və dəstək verən müəllimlər olsun, interaktiv sinif otağı faktların ötürülməsindən daha çox anlayışlara, prinsiplərə və biliklərin tətbiqinə yönəldiyi yerə çevrilsin, bir çox cəhətdən sinif şagirdlərin bildiklərini deyil, bilmədiklərini öyrəndiyi yerə çevrilsin.

**Dissertasiyanın elmi yeniliyi.** Orta məktəb şagirdlərində ingilis dilinin şifahi nitq bacarıqlarının formalaşdırılmasında interaktiv təlim metod və texnikalarının tətbiq edilməsi bizdə tədris planlarına yenilikçi bir yanaşma daxil etmək barədə ideya yaratdı. İnteraktiv təlim metod və texnikalarını orta məktəblərdə ingilis dilinin tədris olunması ilə bağlı istifadə etmək bir sıra yeni nəticələr əldə etməyə yardım etdi. İnteraktiv təlim metodları ilə dərslərin keçirilməsi həm şagirdlər tərəfindən bəyənilir və dəstəklənir, həm də müəllimlərə xarici dilin tədrisində bir çox üsullar təklif edərək onların işlərini asanlaşdırır. Bundan əlavə tədqiqat işi ilə bağlı eksperimental tədqiqat aparılaraq əldə edilən məlumatlar da tədqiqat işinin elmi yeniliyinə daxildir.

**Dissertasiyanın nəzəri və praktiki əhəmiyyəti.** İnteraktiv təlim ilə ənənəvi təlim arasındakı bən mühüm fərqli cəhətlərdən biri ənənəvi dərslərin

müəllim mərkəzli, interaktiv dərslərin isə şagird mərkəzli olmasıdır, yəni interaktiv dərslərdə şagird aktiv olur. Günümüzdə interaktiv təlim metod və texnikaları ilə dərs keçərkən istifadəsi mümkün olan bütün müasir tədris texnologiya və avadanlıqlarından bəhrələnmək lazımdır. Bu məqsədlə müasir müəllim dərs prosesində ağıllı lövhə, proyektor, video və audiokasetlərdən, kompyuter, yaddaş kartları və s. kimi bütün istifadəyə yararlı vəsaitlərdən faydalanmalıdır. Tədqiqat işinin praktik əhəmiyyəti tədqiqat işində öz əksini tapan məlumatlardan, əldə olunmuş nəticələrdən seminarlarda, dərsliklərdə istifadə edilə bilməsidir.

**Tədqiqat işinin nəzəri metodoloji bazası.** Tədqiqat işinin yerinə yetirilməsində psixoloji, didaktik və metodiki ədəbiyyatın təhlili, təsviri, tədqiqatın faktiki materialının sistemləşdirilməsi, təsnifatı, işlənməsi və ümumiləşdirilməsi, müşahidə metod və üsullarından istifadə edilmişdir.

**Müdafiəyə təqdim olunan müddəalar.** Müdafiə mərhələsinə aşağıdakı müddəalar təqdim edilir:

- İngilis dili dərslərində interaktiv metodlardan istifadə etməklə şagirdlərə şifahi nitqin tədrisinin nəzəri əsasları;
- İngilis dili dərslərində interaktiv tədris metodlarından istifadə.

**Tədqiqat işinin aprobasiyası.** Təqdim olunan dissertasiyanın mövzusu Azərbaycan Dillər Universitetinin Xarici Dillərin Tədrisi Kafedrasında hazırlanmışdır. Təqdim olunmuş dissertasiya mövzusu ilə əlaqədar müəllifin bir məqaləsi də çap edilmişdir.

**Tədqiqat işinin strukturu**. Dissertasiya işinin quruluşu ənənəvi olaraq giriş, iki fəsil, altı yarımfəsil, əldə edilmiş nəticə və dissertasiyanın fəsillərinin yazılmasında istifadə edilmiş mənbədən, beş cədvəldən və dörd sxemdən və altı şəkildən ibarətdir.

## Fəsil 1. İngilis dili dərslərində interaktiv metodlardan istifadə etməklə şagirdlərə şifahi nitqin tədrisinin nəzəri əsasları

### 1.1. Orta məktəb şagirdlərinin ingilis dilində şifahi nitqin tədrisinin psixolinqvistik xüsusiyyətləri

Azərbaycan Respublikası günü-gündən çiçəklənir və inkişaf edir. Sözsüz ki, dövlətimizin bugünki tərəqqisində ümummilli lider Heydər Əliyevin və onun layiqli davamçısı cənab İlham Əliyevin əvəzsiz xidmətləri olmuşdur. Davamlı həyata keçirilən sosial-iqtisadi islahatlar, nəticəsində ölkəmiz bugün dünyada ən sürətlə inkişaf edən dövlətlər sırasında yer alır. Son illərdə Azərbaycan Respublikası bir sıra idman yarışlarına ev sahibliyi etmişdir ki, bunun da nəticəsində beynəlxalq arenada Azərbaycanın adı dinamik şəkildə inkişaf edən bir dövlət kimi qeyd olunur.

Həmçinin təhsil sahəsində də islahat proqramı işlənib hazırlanmış və həyata keçirilmişdir ki, bu da Azərbaycanda təhsilin inkişafına öz töhfəsini vermişdir. Bundan başqa təhsil müəssisələrinin maddi texniki bazası yaxşılaşdırılmış, infrastruktur və insan resursları inkişaf etdirilmiş, 2500-ə dək yeni məktəb binası inşa olunmuş və istifadəyə verilmişdir.

Əlbəttə ki, əgər bir dövlətin təhsil sistemi dayanıqlı əsaslarla qurularsa bu zaman həmin cəmiyyətdə insanların da həyat səviyyəsi yaxşılaşar, mənəvi və psixoloji cəhətdən sağlam ömür sürər və ətraf mühitə münasibətdə düzgün mövqe seçərlər.

Dil və nitq haqqında danışarkən belə bir sual meydana çıxır: Dil nədir və hər bir insanın şüurunda dil necə yaranır? Dil ünsiyyət vasitəsidir. Ana dili odur ki, hər bir insan dünyaya göz açdıqda ilk bu dili eşidir və kənardan başqaları vasitəsilə bu dilin təsirinə məruz qalıb ondan istifadə edir [59, s.4]. Dil xalqın çoxəsrlik yaradıcılığının nəticəsi, milli fəaliyyətin təcəssümüdür. Ana dilindən başqa öyrənilən dillər isə ikinci dil və ya xarici dil kimi istifadə olunur. Əgər insan bir dildən istifadə etməyi dayandırarsa, tədricən həmin dil unudular. Dil hər zaman kollektivin mülkiyyətidir; o ayrı-ayrı dillərin mexaniki cəmini təmsil

edə bilməz. Əksinə, hər bir natiqin çıxışı, müəyyən bir vəziyyət kontekstində müəyyən bir dilin təzahürü kimi qəbul edilə bilər. Ancaq hər bir insanın nitqindəki fərdi xüsusiyyətlər də danılmaz bir həqiqətdir.

Dil və nitq anlayışları arasındakı fərq ilk olaraq İsveçrə dilçisi Ferdinand de Sossür tərəfindən irəli sürülmüş və əsaslandırılmışdır [40, s.3].

Dil, insan şüuru və təfəkkürü ilə birlik və qarşılıqlı əlaqədə işləyən ən mürəkkəb işarələr sistemidir. Dil danışanların şüurunda mövcud olur.

Dil insanın şüuruna kənardan aydın şəkildə nüfuz edir və ətrafdakı insanlar tərəfindən istifadə edildiyi üçün şüura nüfuz edir. Onlardan nümunə götürərək insanın özü də bundan istifadə etməyə başlayır [21, s.85].

Dildən ünsiyyət vasitəsi kimi istifadə etmək bu dilə praktik olaraq yiyələnmək deməkdir. Deməli dildən praktik şəkildə istifadə edən şəxs bu dildə danışmaq, oxumaq və oxuduğunu anlamaq, bu dildə dinlədiyini başa düşmək, eləcə də fikirlərini həmin dildə sərbəst şəkildə ifadə etmək kimi bacarıqlara malik olur. Göstərilən bacarıqlardan hər hansısa biri olmasa, bu dil ünsiyyət vasitəsi hesab oluna bilməz.

Nitq adı altında müasir dilçilik yalnız şifahi nitqi deyil, yazılı nitqi də öyənir. Geniş mənada, nitq anlayışına daxili nitq deyilən anlayış da daxildir. Daxili nitq dedikdə nitq vasitələrinin səsləndirilmədən düşüncənin gücü ilə reallaşdırılmasını başa düşürük. Nitqin iki forması mövcuddur: Şifahi nitq və yazılı nitq. Hər bir nitq formasının özünəməxsus xüsusiyyətləri var [70].

***<u>Şifahi nitq:</u>***

1. Səsli bir nitqdir, fonetik və prosodik ifadə vasitələri sistemindən istifadə edir;
2. Danışma prosesində yaranır;
3. Şifahi improvizasiya və bəzi linqvistik xüsusiyyətlərlə xarakterizə olunur (söz ehtiyatını seçməkdə sərbəstlik, sadə cümlələrin istifadəsi, müxtəlif növ həvəsləndirici sorğu -sual, nida cümlələrinin istifadəsi, təkrarlamalar, düşüncənin natamam ifadəsi və s.) [77].

***Yazılı nitq:***

1. Forma olaraq sabitdir;
2. Əvvəlcədən düşünülə və düzəldilə bilər;
3. Bəzi xüsusiyyətlər ilə xarakterizə olunur ( dil normalarına ciddi riayət olunması, dildə kənar elementlərin olmaması və s.).

Şifahi nitq yazılı nitqdən öz ünvan sahibinin təbiətinə görə də fərqlənir. Yazılı nitqdə yazıçı öz oxuyucusunu görmür, onu yalnız öz təsəvvüründə canlandıra bilir. Buna görə də yazılı nitqdə yazıçı öz oxuyucusunun reaksiyasından təsirlənmir.

Şifahi nitq prosesində isə danışan öz dinləyicisini həm görür həm də eşidir. Buna görə də danışan öz dinləyicisinin reaksiyasından təsirlənə bilir. Buna görə də şifahi nitqdə onun dinləyici tərəfindən necə qəbul olunması məsələsi çox önəmlidir. Bütün bunlar şifahi nitqə təsir edə və dinləyənin reaksiyasından asılı olaraq onu dəyişə bilər. Şifahi nitq prosesi zamanı ona hər hansısa bir düzəliş etmək, geri qaytarmaq, üzərində işləmək mümkün olmur. Amma yazılı nitq prosesində yazıçı müəyyən mətni təkmilləşdirə, dəyişdirə, müəyyən düzəlişlər edə bilər.

Şagirdlərin ingilis dilində şifahi və yazılı nitqi qavraması da müxtəlifdir. Yazılı nitq vizual qavrayış üçün nəzərdə tutulmuşdur [77]. Oxuyarkən, anlaşılmaz bir parçanı bir neçə dəfə təkrar oxumaq, lüğətlərdən istifadə edərək terminlərin düzgün anlaşılmasını yoxlamaq imkanı həmişə var. Şifahi nitq isə qulaq tərəfindən qəbul edilir. Yenidən çoxaltmaq üçün xüsusi texniki vasitələrə ehtiyac var [77]. Buna görə də, şifahi nitq elə qurulmalı və təşkil edilməlidir ki, məzmunu dərhal dinləyicilər tərəfindən anlaşılsın və asanlıqla mənimsənilsin.

Şifahi və yazılı nitq arasındakı fərqləri təsdiqləyən atalar sözləri də mövcuddur. Məsələn: *Qələmlə yazılanı balta ilə kəsə bilməzsən, söz sərçə deyil, uçarsa tuta bilməzsən.* Yazılı nitq uzunmüddətlidir, bir neçə dəfə nəzərdən keçirmək mümkündür. Şifahi nitq isə qısamüdddətli olduğu üçün onu yenidən nəzərdən keçirmək mümkün olmur.

Bu iki nitq formasının tarixinə nəzər salsaq görərik ki, şifahi nitq daha qədimdir və yazılı nitqdən daha öncə yaranmışdır. Sonralar insanlar şifahi nitqi uzunmüddətli etmək və digər insanlara müəyyən məlumat və mesajlar ötürmək məqsədilə yazılı nitqi yaratmışlar.

Şifahi nitqin psixoloji xüsusiyyətlərindən danışarkən mütləq qeyd etməliyik ki, danışıq və eşidib-anlama fəaliyyətləri şifahi nitqin tərkibində birləşir. Bundan başqa danışıq və eşidib-anlama bir-birilə sıx qarşılıqlı əlaqədə olduğuna görə nitq mexanizmləri uyğun olaraq üç mexanizmə bölünür.

1. Danışıq mexanizmləri
2. Eşidib-anlama mexanizmləri
3. Danışıq və eşidib anlama mexanizmləri üçün eyni dərəcədə mühüm olan ortaq mexanizmlər

*Psixolinqvistika* termini Amerikalı psixoloq Jacob Robert Cantor tərəfindən 1936-cı ildə yazılmış "*Qrammatikanın Obyektiv Psixologiyası*" kitabında irəli sürülmüşdür. Bu termin, J.R.Cantorun tələbələrindən biri olan Nikolas Henri Pronko tərəfindən 1946 -cı ildə yazılmış "*Dil və Psixolinqvistika: Ümumi dəyərləndirmə*" adlı məqaləsində populyarlaşmışdır. Psixolinqvistikanın akademik bir sahə olaraq ortaya çıxması, əsasən, 1951 -ci ildə Cornell Universitetindəki bir seminarla əlaqələndirilir [78].

Psixolinqvistika, dilin psixoloji və linqvistik aspektlərini öyrənir. Psixolinqvistika qısamüddətli və uzun müddətli yaddaş, qavrama strategiyaları və dil modellərinə əsaslanan nitq qavrayışı kimi mövzuları öyrənir. Psixolinqvistikada ən çox işlər uşaqların dil öyrənməsi üzərində aparılmışdır. Dil son dərəcə mürəkkəb quruluşa malik olsa da, uşaqlar onu tez və asanlıqla öyrənə bilirlər. Beləliklə, uşaq dilinin öyrənilməsi idrak və öyrənmə ilə maraqlanan psixoloqlar və dilin quruluşu ilə maraqlanan dilçilər üçün çox vacib olmuşdur. 1960-cı illərdə və 70-ci illərin əvvəllərində uşaqların dili öyrənməsi ilə bağlı çoxlu araşdırmalar amerikalı dilçi Noam Çomski tərəfindən irəli sürülmüşdür. Bu araşdırmaların əsas məqsədi, uşaqların eşitdikləri nitqin əsasını

təşkil edən qrammatik prosesləri necə tanıdıqlarını kəşf etmək olmuşdur [21, s.24].

Psixolinqvistika, insanın nitq fəaliyyətinin psixoloji və linqvistik aspektlərini, nitq ünsiyyəti və fərdi nitq düşünmə fəaliyyətində dilin istifadəsinin sosial və psixoloji aspektlərini öyrənən bir elmdir.

Psixolinqvistikanın əsas tədqiqat mövzusu insan fəaliyyətinin xüsusi bir növü olaraq nitq fəaliyyətidir ki, onun psixoloji məzmununu, quruluşunu, həyata keçirilmə üsulları və formalarını, funksiyalarını öyrənir.

Psixolinqvistika iki elmin – psixologiya və linqvistikanın bənzərsiz və özünəməxsus birləşməsi nəticəsində yaranan sintetik, mürəkkəb bir elmdir.

Psixolinqvistika, insanların dildən istifadə etməsinə imkan verən zehni mexanizmləri öyrənir. Alan Garnham "*Psixolinqvistika və mərkəzi mövzular*" kitabında deyir ki, psixolinqvistika dilin necə yaradıldığı və başa düşüldüyünə dair tutarlı bir nəzəriyyəni hədəfləyən elm sahəsidir [78].

David Karola görə psixolinqvistik proseslərin əsasında iki əsas sual dayanır.

1. Dildən istifadə etmək üçün hansı dil biliklərinə ehtiyacımız var? Müəyyən mənada dili istifadə etmək üçün biz bu bilikləri bilməliyik. Lakin biz heç vaxt bu biliklərdən tamamilə agah olmuruq.
2. Normal dil istifadəsinə hansı koqnitiv proseslər cəlb olunur? Normal dil istifadəsi dedikdə mühazirəni anlamaq, kitab oxumaq, hər hansısa məktubu oxumaq və ya ünsiyyət prosesi başa düşülür. İdraki proseslər dedikdə isə qavrama, yaddaş və düşünmə nəzərdə tutulur. Bəzən bizə elə gəlir ki, danışmaq və dinləmək çox sadə və asanlıqla həyata keçirilən fəaliyyətlərdir. Əslində, həm dinləmə həm də danışıq fəaliyyəti zamanı müxtəlif və olduqca mürəkkəb idraki proseslər aktivləşir [78].

Gündəlik həyatımızda dildən istifadənin əsas olması, onu istifadə etmə qabiliyyətimizdəki hər hansısa bir pozulmanın kəskin şəkildə hiss oluna biləcəyini bildirir. Pozulma nə qədər ağır olarsa, təsiri bir o qədər dağıdıcı olar. Bu pozğunluq qocalmanın bir hissəsi olaraq, inkişaf problemlərindən, və beyin

fəaliyyətinin pozulmasından, eşitmə qabiliyyətimizin pozulmasından və s. səbəblərdən yarana bilər. Bütün bu hallardan əlavə, bu pozulma nisbətən kiçik də ola bilər , məsələn, doğru sözü tapmaqda çətinlik çəkmək və ya olduqca sadə cümlələri başa düşməkdə müşahidə olunan çətinlik və s. Buna görə də dilin necə işlədiyinə dair araşdırmalar çox vacibdir. Çünki bu, sonradan dil qabiliyyətində hər hansısa pozuntu olan insanlara daha təsirli müalicələr hazırlamaqda və onlara uyğun dil modeli tətbiq etməkdə istifadə oluna bilər.

Müasir linqvistikada psixolinqvistlər söz mənasının, cümlə mənasının və diskurs mənalarının zehində necə hesablandığını və təmsil olunduğunu öyrənirlər. Danışıqda mürəkkəb sözlərin və cümlələrin necə qurulduğunu, dinləmə və oxuma fəaliyyətlərinə necə bölündüyünü öyrənirlər. Bir sözlə, psixolinqvistlər dilin necə yarandığını anlamağa çalışırlar. Ümumiyyətlə, psixolinqvistik araşdırmalar göstərdi ki, səsin, sözün və cümlənin quruluşunda istifadə olunan anlayışların çoxu dilin işlənməsində mühüm rol oynayır. Bununla yanaşı psixolinqvistika müxtəlif linqvistik konseptlərin bir-birilə necə əlaqələndiyini də öyrənir.

Psixologiyaya görə dil ünsiyyət vasitəsi, nitq isə ünsiyyət prosesidir. Dil elə bir məhfumdur ki, o ümumbəşəridir, xalqa məxsus hesab olunur. Nitqə isə daha fərqli aspektdən baxılır. Nitq xalqa yox, ayrı-ayrı şəxslərə, fərdə məxsusdur.

Nitq psixoloji proses hesab olunduğu üçün psixologiya elminin tədqiqat obyekti kimi nəzərdən keçirilir. Dilin müxtəlif funksiyaları var. Başlıcası dil əsrlər boyu tarixi təcrübənin gənc nəsillərə ötürülməsində əvəzsiz rolu olan vasitədir.

Dilin növbəti funksiyası kimi onun nitqin fəaliyyət istiqamətini müəyyənləşdirməsini qeyd edə bilərik. İngilis dilində nitqə yiyələnmə prosesi bir neçə mərhələdən keçir. Əvvəla şagirdlərdə eşitmə qabiliyyəti formalaşır və inkişaf edir. Şagirdlər yeni sözləri eşidir, yadda saxlayır, müxtəlif sözləri bir birindən fərqləndirir daha sonra isə onları tələffüz etməyə başlayırlar.

Növbəti mərhələdə isə uşaqlar söz ehtiyyatını genişləndirir, bu sözlər arasındakı əlaqəni anlayır və həmçinin bu sözlərin mənalarını dərk etməyə başlayırlar.

Nitqin də bir sıra funksiyaları var. Nitqin ilkin funksiyası onun cisim və hadisəri, bizi əhatə edən aləmdəki hərəkət və vəziyyətləri və s. varlıqları adlandırmaqdır. Bu nitqin semantik funskiyası adlanır. Nitqin digər funksiyası ümumiləşdirmə və informasiyanı ötürməkdir. Nitqin əsas funksiyası dedikdə isə onun kommunikativ funskiyası nəzərdə tutulur. Kommunikativ fuksiya dedikdə ünsiyyət və ünsiyyətə daxil olmaq bacarığı başa düşülür.

Nitq elə bir xüsusiyyətə malikdir ki, o, insanları ünsiyyət prosesinə cəlb edir, yəni işə təhrik edir. Işə təhriketmə funksiyasının məğzi ondan ibarətdir ki, nitq başqalarına təsir edir, insanların hərəkətlərində bir sıra fərqliliklər yaradır və insanı hər hansısa bir hərəkəti həyata keçirməyə istiqamətləndirir. Nəticədə insanlar ünsiyyətdə olur, bir-birilə əlaqə saxlayır, informasiya mübadiləsi aparır və qarşılıqla inkişafa yönəlirlər.

Nitq həmçinin bacarıq və vərdişlər toplusu kimi gözdən keçirilir. Bəs bacarıq və vərdişlər toplusu dedikdə nə başa düşürük? Bacarıq və vərdişlər dil materiallarından məqsədəuyğun şəkildə istifadə etmək başa düşülür.

Psixoloqlara görə düzgün nitq vərdişlərinin formalaşması üç mərhələdən keçir.

1. Vərdişin əsasının yaranma mərhələsi
2. Yönəltmə mərhələsi
3. Nitq fəaliyyətinin avtomatlaşması

Nitq vərdişlərinin avtomatlaşması mərhələsindən sonra yeni bir mərhələ özünü göstərir ki, buna nitq vərdişlərinin aşılanması mərhələsi deyilir.

Digər tərəfdən bəzi psixoloqlar belə qənaətə gəlmişlər ki, nitq bacarıqlarının formalaşmasının üç pillədən keçir:

1. Elementar bacarıqlar
2. Vərdişlər və ustalıq adlandırır
3. Vərdişləri nəticə elementi kimi qiymətləndirir

Digər bir qrup psixoloqlar isə belə düşünürlər ki, vərdişlər bacarıqların avtomatlaşdırılmış komponentləri kimi dəyərləndirilməlidir. Çünki bu prosesin başlanğıc nöqtəsi nümunə və qayda üzrə fəaliyyətin yerinə yetirilməsindən başlayır. Buradan da belə nəticəyə gəlirik ki, vərdişlər fəaliyyətin avtomatlaşdırılmasından asılı olaraq meydana gəlir. Vərdiş haqqında isə deyə bilərik ki, vərdişlər çalışmalar vasitəsilə güclənir və insan şüurunun iştirakı olmadan avtomatik şəkildə həyata keçirilir.

Şifahi nitq vərdişlərinin orta məktəb şagirdlərində inkişaf etdirilməsi qaydalarının metodik ədəbiyyatda hələ tam şəkildə tədqiq olunmamışdır. Bu materialda qrammatika nəzəri material hesab olunur. Bəzən belə hesab edirlər ki, qrmmatikanın təlimi leksik materialın təlimi ilə eynidir. Əslində bu doğru yanaşma deyildir. Xarici dil metodikasının qrammatika ilə əlaqədar vəzifəsi elə qrammatik materialın seçilməsinə yönəlib ki, o nitq fəaliyyətini aktivləşdirə bilsin. Ona görə də əyaniliyə, izahata, çalımalar sisteminin işlənib hazırlanmasına mühüm yer ayrılmalıdır. Nitq fəaliyyəti iki hissəyə ayrılır: 1) aktiv; 2) passiv. Buna görə də dilçilik və metodika elminin əsas məqsədi qrammatik materialın bu bölgüyə əsasən seçilməsidir. Bu baxımdan burada qrammatik minumumun seçilməsinin mühüm rolu vardır. Biz qrammatikanın metodik və linqvistik sistemləri arasında fərqi aydınlaşdırmalıyıq ki, qrammatik minumum yarada bilək. Bu sahədə kifayət qədər fərqlilikləri nəzərə çatdıran materialların olmaması nəticəsində orta məktəb dərslikləri həddindən artıq qrammatik materialla yüklənmişdir. Bu da öz növbəsində bacarəq və vərdişlərin inkişaf etməsinə mane olur. Dilçilikdə qeyd olunur ki, qrammatika elə bir elm sahəsidir ki, burada dilin quruluşu haqqında bəhs olunur. Dilin quruluşuna forma və konstruksiya, qrammatikaının bütün sistemi aiddir.

Metodik sistemdə isə qrammatika başqa mövqedən nəzərdən keçirilir. Belə hesab olunur ki, dil materialının mənimsənilməsi, eləcə də bilik və bacarıqların formalaşdırılması prosesi ilə bağlı psixoloji qanunauyğunluqlara diqqət yetirilməlidir. Psixologiyadan bizə aydındır ki, ümümumiləşdirici və tək qrammatikanın mənimsənilməsi bir-birindən fərqli anlayışlardır.

Ümumiləşdirici materialın təlimi zamanı şagirdlərdə yük intellektual fəaliyyət üzərinə düşür. Tək materialın öyrədilməsi zamanı isə əsas iş şagirdlərin yaddaşı üzərinə düşür. Məhz bu səbəbdən bu iki anlayış arasındakı fərqi görməmək mümkün deyildir. Lakin biz bu iki məhfumu bir birindən tamamilə ayrı salmadan onların seçilməsi zamanı ortaq cəhətlərin nəzərə alınmasını vurğulamalıyıq. Ona görə də dilçilər ve metodistlər, hər iki tərəf şifahi ünsiyyət üçün aktiv qrammatik minimumun seçilməsinə üstünlük verirlər. Aktiv qrammatik minimum bütün bu materialın əsasını təşkil edir. Belə bir sual meydana çıxır ki, aktiv minmumların seçilməsi zamanı hansı mənbələrdən istifadə olunur? Bu zaman başlıca mənbə kimi mətnlər, lüğət minimumu nəzərdə tutulur. Bu sahədə bəzi prinsiplər vardır ki, əsas olaraq götürülür. H.Palmerin "A Grammar of English words" adlı kitabında lüğət minimumu qrammatik forma seçmək üçün bir cəhd kimi göstərilir [21, s.37]. Burada ümumi prinsipdən danışarkən qrammatik vasitələrin daha çox yayılması nəzərdə tutulur. Bundan başqa xüsusi prinsiplər də mövcuddur ki, onlar aktiv qrammatik minimumlar üçün əsas götürülür. Bunlara nümunələrin verilməsi, sinonimlərin daxil edilməsi, məzmun və s. aiddir. Uyğun materialın seçilməsindən sonra isə başlıca məsələ bu seçilmiş qrammatik materialın ardıcıl tətbiqi məsələsidir. Bu zaman əsas prinsip ənənəvi qaydada asandan çətinə və sadədən mürəkkəbə doğru irəliləməkdir.

## 1.2. Şagirdlərdə İngilis dilinin tədrisində şifahi nitq bacarıqlarının inkişafı

Hər kəsə məlumdur ki, ingilis dili bütün dünyada beynəlmiləl bir dil statusuna malikdir. Dünyanın elə bir sahəsi yoxdur ki, orada ingilis dili istifadə olunmasın.

Dünya tarixində gedən mürəkkəb hadisələr və proseslər nəticəsində ingilis dili dünyanın bir çox hissəsinə yayılmış və hal hazırda aktiv şəkildə istifadə olunmaqdadır.

İngilis dilindən təkcə şifahi və yazılı ünsiyyət vasitəsi kimi yox, eləcə də digər müxtəlif sahələrdə istifadə olunur ki, buna misal olaraq beynəlxalq biznes, diplomatiya və internet şəbəkəsini göstərə bilərik. Bir sıra ölkələrdə ingilis dili ikinci xarici dil kimi öyrənilir. Bu baxımdan məktəblilərin hələ kiçik siniflərdə oxuyarkən bu dil ilə tanış olması daha məqsədəuyğun hesab olunur.

Müasir dövrdə dünya çevik şəkildə inkişaf edir, yeni innovasiyalar yaranır. Cəmiyyət üçün yararlı vətəndaş olmaq üçün bu yeniliklərlə ayaqlaşmaq və ömrü boyu özünütəkmilləşdirmə yolu tutmaq lazımdır. Müasir dövrdəki yeniliklər həmçinin təhsil sahəsi ilə da bağlıdır. Ona görə də müəllimlərin üzərinə böyük məsuliyyət düşür.

Müasir dövrdə xarici dilin tədrisində ən çox üstünlük verilən, və ən önəmli hissə həmin dildə şifahi nitq bacarıqlarına yiyələnməkdir. Bu o deməkdir ki, xarici dili öyrənən şəxs həm həmin dildə deyilənləri başa düşür, həm də bu fikrə sərbəst şəkildə münasibət bildirə bilir.

Bunu da qeyd etmək lazımdır ki, nitq prosesləri (oxu, dinləmə, yazı və danışıq) içərisində ən mühümü şifahi nitqin inkişafıdır. Ona görə də məktəbdə xarici dildə şifahi nitq bacarıqlarının inkişafı ən əsas məsələlərdən biridir. Azərbaycanda məktəblərdə xarici dil tədrisində şifahi nitqin inkişafı ən önəmli yeri tutur.

Şifahi nitq vasitəsilə şagirdlər dərs zamanı öyrəndikləri dilə aid xüsusiyyətləri, söz və ifadələri danışıq prosesində istifadə edirlər.

Xarici dil təliminin ilkin mərhələsində (elementar səviyyədə) dillə bağlı anlayışların hamısı əsasən danışıq bacarığının formalaşdırılması yolu ilə əldə olunur. Şifahi nitq bacarıqlarının formalaşdırılması zamanı şagirdlər ümumi danışıq vərdişlərinə yiyələnərək öz fikirlərini müstəqil şəkildə ifadə etməyi, eləcə də həmsöhbətlərinin nitqini düzgün başa düşməyi öyrənirlər.

Bəs necə etmək lazımdır ki, şagirdlərdə ingilis dilində şifahi nitq bacarıqları inkişaf etsin? Bəziləri düşünür ki, dildə olan cümlələri hazır şəkildə öyrətməklə, yəni mexaniki surətdə şagirdlərdə ingilis dilində danışıq bacarıqlarını inkişaf etdirmək olar. Lakin bu çox doğru yanaşma deyildir. Çünki

hər hansısa bir xarici dildə şifahi nitq bacarıqlarını inkişaf etdirmək üçün əvvəlcə həmin dilin müxtəlif mühüm aspektləri öyənilməlidir. Elə bu mühüm aspektlərdən biri də dilin qrammatikasıdır. Şagirdlər ingilis dilində yalnız lüğət əzbərləmək, çoxlu sözlər öyrənməklə nə dəqiq şəkildə eşitdiklərini anlaya bilərlər, nə də özləri hər hansısa bir fikrə münasibət bildirə bilərlər. Bunun üçün mütləq şəkildə dilin qrammatik incəliklərinə bələd olmaq lazımdır. Əgər söylənilən fikir qrammatik cəhətdən düzgün qurulmayıbsa, bu hətta mənanın təhrif olunmasına, cümlənin məzmununun dəyişməsinə səbəb ola bilər.

Əgər şagirdlərdə ingilis dilində şifahi nitq bacarıqlarının inkişafından danışırıqsa, orta məktəbdə ingilis dilinin qrammatik xüsusiyyətlərinin öyrənilməsinə xüsusi yer ayırmalıyıq. Bundan əlavə reproduktiv nitqin inkişaf etdirilməsində son dərəcə faydalı olan müxtəlif çalışmalar toplusundan da istifadə məqsədəuyğun hesab olunur. Bu vasitələrdən istifadə olunduqda müəllimlər səmərəli şəkildə şagirdlərdə ingilis dilində danışıq bacarıqlarının inkişaf etməsinə nail ola bilərlər.

Qeyd etdik ki, şagirdlərdə şifahi nitq bacarıqlarının inkişaf etdirilməsi üçün qrammatik minimumlar verilməlidir. Lakin şagirdlərin həmin qrammatik minimumları qavramasında və yaxud nitqində istifadə etməsində müəyyən çətinliklər ola bilər. Bu çətinliklərə misal olaraq aşağıdakıları göstərə bilərik.

1. Söz sırasında müəyyən çətinliklər nəzərə çarpa bilər. Professor Oruc Musayev bildirmişdir ki, bir dili öyrənərkən ən əsas məqamlardan biri bu dildəki söz sırasını bilməkdir. Çünki şagirdlər öyəndikləri xarici dildə söz sırasını bilməklə bundan hazır qəlib kimi yararlana və tədricən şifahi nitq bacarıqlarını genişləndirə bilərlər [17, s.42].

Ana dilimiz olan Azərbaycan dili aqlutinativ dil olduğundan (şəkilçilərdən istifadə olunan dil) cümlədə söz sırasını dəyişməkdə sərbəstik və bu zaman ifadə edəcəymiz fikir təhrif olunmur. Amma ingilis dili analitik dillərə ( şəkilçisiz dil) aid olduğuna görə söz sırasını dəyişməklə cümlədəki mənanı da dəyişmiş oluruq. Hətta cümlədəki söz sırasını dəyişməklə nəqli cümlə sual cümləsinə çevrilə bilir. Məsələn,

*She is a student. – İs she a student?*

*Tom has a book. – Has Tom a book?*

2. Şagirdlər ingilis dilində danışıq zamanı qarşılaşdığı çətinliklərdən biri də zamanların dərk olunması və yerinə görə işlənməsidir. Buna səbəb odur ki, Azərbaycan dilində indiki zamanın yalnız bir forması olduğu halda, ingilis dilində indiki zamanın bir neçə forması (qeyri-müəyyən, davamedici, bitmiş, bitmiş davamedici) var.
3. Həmçinin zaman uzlaşması, artiklın işlənməsi, modal feillər və başqa bu kimi çətinliklər şagirdlərdə ingilis dilində danışıq zamanı çətinliklər yarada bilir. Şagirdlərə bu qaydalar ətraflı şəkildə izah olunmaqda, onlar hər bir qaydanın mahiyyətini dərk etmədikdə ingilis dilində danışmağa da çəkinirlər. Çünki həm səhv etməkdən qorxurlar, həm də ingilis dilində danışmaq onlara çox çətin görünür.

Metodik ədəbiyyatda ünsiyyət zamanı daha çox istifadə olunan qrammatik materialın tədrisi nəzərdə tutulur. Çünki bu zaman şagirdlərdə şifahi nitqin bünövrəsi qoyularaq aktiv materialı mənimsəmələri təmin edilir.

Söylənilən fikri eşitdiyin anda anlamaq və ona münasibət bildirmək nitq fəaliyyətinin ən mühüm hissəsi qrammatika ilə bağlı müəyyən bilik tələb edir. Beləliklə də şagird dialoqa girə bilir və müvafiq sözlər əsasında düşündüyünü asanlıqla ifadə edə bilir.

Bir şeyi unutmaq olmaz ki, xarici dil dərsində qrammatika dərsin yeganə məqsədi olmayıb, ümumilikdə xarici dilin öyrənilməsində bir vasitə olmalıdır. Öyrənənlərə xarici dilin qrammatikasını izah edərkən yaxşı olar ki ana dilindən istifadə edilsin və qrammatik biliklərin daha yaxşı mənimsənilməsi üçün mövzular situativ çalışma və fəaliyyətlərlə təqdim olunsun.

Ümumiyyətlə, qrammatik minimumu şagirdlərə səmərəli, şüurlu və mükəmməl şəkildə mənimsətmək lazımdır ki, şagirdlər onun mahiyyətinə varsın və şifahi nitq zamanı qrammatik səhvlərə yol verməsinlər. Bu məqsədlə dərs prosesi zamanı sxemlərdən və cədvəllərdən istifadə etməklə əyaniliyi təmin edə və şagirdlər tərəfindən daha rahat qavranılmasına kömək edə bilərik.

Şagirdlərin öyrəndiyi qaydaya aid misallar göstərəndə həmin qaydanı daha yaxşı yadda saxlayır və şifahi nitqində də bu qaydanın istifadəsinə yer ayırır. Bundan başqa dərsdə situasiya yaratmaq da şifahi nitqdə qrammatik qaydaların istifadəsini möhkəmlətməyə kömək edə bilər. Müasir Metodikada şagirdləri düşünməyə sövq etmək, oxudu material əsasında nəticəyə gəlmək və fikir söyləməyə təhrik etmək ən əsas məqamlardan biri hesab olunur.

Hər hansısa bir xarici dili tədris edərkən mütləq şəkildə bu dilin öynildiyi şərait, ən çox da örənənlərin doğma dilinin təsirinə diqqət yetirilməlidir.

Xarici dilin mənimsənilməsi prosesinə doğma dilin təsirindən yazan L.İ.Zilberman qeyd edir ki, istənilən xarici dilin ana dilindən istifadə edilərək tədris olunması metodikasını tərtib edərkən bununla bağlı olan elmlərlə, xüsusən də dilçilik elmi ilə sıx əməkdaşlığın təmin olunması olduqca zəruridir” [31, s.3].

Deməli hər hansısa xarici dili tədris edərkən ana dilinin xüsusiyyətləri nəzərə alınaraq ona uyğun metodikanı hazırlamaq lazımdır. Bu zaman digər elmlərin, məsələn, psixologiya, pedaqodika və dilçilik elminin nailiyyətlərindən yararlanmaq lazımdır.

Xarici dil və ana dili arasındakı qarşılıqlı əlaqə ilə bağlı məşhur dilçilərdən biri olan L.V.Şerba qeyd edir ki, insanlar öz doğma dillərini başqalarına öyrədərkən bu dilə daha yaxşı yiyələnir və beləliklə xarici dil ana dilinin mənimsənilməsində nə qədər vacibdirsə, ana dili də xarici dilin mənimsənilməsində o qədər vacibdir [43, s.5].

Məsələn modal sözləri və yaxud məchul növü şagirdlərin öz ana dilində izah edib daha sonra ingilis dilində tədris etmək həm daha effektiv olur, həm də şagirdlər ingilis dilini ana dili ilə müqayisəli şəkildə öyrənmiş olurlar.

P.A.Hol bu barədə qeyd edir ki, ana dilindən istifadə etməklə xarici dilin öyrədilməsində başlıca məqsəd bu dillərin müqayisəli təhlilini aparmaq yox, öyrənənlər üçün xarici dilin mənimsənilməsində çətinlik yaradan və ya maraq oyadan nüansları üzə çıxarmaqdır [14, s.9].

Buna oxşar fikirlərdən birini də R.London özünün xarici dil ilə ana dilinin qarşılıqlı təsirindən bəhs etdiyi kitabında qeyd edir. O yazır ki, xarici dili

öyrənərkən ana dilində mövcud olmayan nüanslararı mənimsəmək daha vacibdir. Çünki ğyrənənlər ana dilində də mövcud olan anlayışlar haqqında artıq məlumata sahibdirlər [14, s.12].

İ.D.Salistra qeyd edir ki, xarici dilin öyrənilməsi zamanı şagirdlərin ana dili və öyrənilən xarici dil bir-birilə mürəkkəb qarşılıqlı təsir prosesində olurlar [41, s.3].

Ana dilinin şagirdlərin xarici dil öyrənmə prosesinə təsiri 2 cür – həm mənfi, həm də müsbət ola bilər. Bəs bu təsir nə zaman müsbət, nə zaman mənfi olur? Əgər öyrənilən xarici dil ilə ana dilinin quruluşları bir-birindən kəskin şəkildə fərqlənirsə, bu öyrənmə prosesinə öz mənfi təsirini göstərir. Ana dili xarici dil sistemi ilə yaxınlıq təşkil etdikdə isə öyrənmə prosesinə öz müsbət təsirini göstərir, öyrənməni sürətləndirir. Məsələn ölkəmizdə şagirdlər ingilis dilini öyrənməkdə ilk başlarda müəyyən qədər çətinliklər çəkirlər. Buna səbəb Azərbaycan dili və ingilis dili sistemləri arasında fərqli cəhətlərin olmasıdır. Lakin müşahidə etsək görərik ki, şagirdlər türk dilini çox tez öyrənir və sadəcə izləməklə, izahsız bu dildə danışıb, ünsiyyət qura bilirlər. Çünki Azərbaycan və türk dilləri arasında yaxınlıq çox olduğuna görə, ana dili türk dilinin öyrənilməsində müsbət gücləndirici kimi çıxış edir. İ.D.Salistra qeyd edir ki, şagirdin ana dili ilə bağlı biliklərindən xarici dilin mənimsənilməsində uğurla istifadə edə bilməsi alqışa layiq bir nüansdır. Bu xüsusiyyət şagirdin xarici dili mənimsəməsini asanlaşdıraraq çətinlik yaradan məsələlərə az qüvvə və zaman ayırmasına yol açır [41, s.1].

Əlbəttə, qrammatik vərdiş və biliklər şifahi nitq bacarıqlarının formalaşdırılması və təkmilləşdirilməsinə səbəb olur. Bunlar ümumilikdə, analitik və sintetik oxu, daimi təkrar və çalışmaların yerinə yetirilməsi ilə möhkəmləndirilir.

Bəzi qaydalar vardır ki, qrammatik çalışmaların həlli zamanı bu qaydalara əməl olunmalıdır.

1. Çalışma möhkəmlətməyi nəzərdə tutduğumuz qrammatik qaydanın tələbinə uyğun olmalıdır.

2. Çalışmanın qarşısında elə məqsəd qoyulmalıdır ki, sadəcə bir çətinliyin aradan qaldırılmasına yönəlsin. Möhkəmləndirələcək hadisə yeni, digər hadisələr isə artıq öyrənilmiş yəni şagirdlər tərəfindən mənimsənilmiş mövzuları əhatə etməlidir.
3. Xarici dil və Azərbaycan dili arasındakı oxşar və fərqli cəhətlər nəzərə alınmalı və buna uyğun çalışmalar sayca daha çox olması məqsədəuyğun hesab olunur.
4. Çalışma yerinə yetirilməzdən əvvəl müəllim tərəfindən çalışmanın şərti kifayət qədər aydın, dəqiq və ətraflı şəkildə izah olunmalıdır ki, şagird bu çalışmada ondan nəyin gözlənildiyini, hansı qaydada həll edəcəyini başa düşsün, və çaşqınlıq hissi yaranmasın.
5. Şagirdlərin qrammatika ilə bağlı bilikləri ilk olaraq ayrılıqda, daha sonra isə mətndən istifadə edərək möhkəmləndirilməlidir.
6. Qrammatik çalışmaları işləyərkən aşağıda qeyd olunan ardıcıllıq gözlənilməlidir.

a) Əvvəlcə biliyi möhkəmləndirən çalışmaları (ana dilinə tərcümə, tamamlama, təsrif etmə, əvəzetmə və s.)
b) Növbəti addım olaraq şagirdlərin bacarıq və vərdişlərini təkmilləşdirən çalışmalar edilməlidir.

Məlum məsələdir ki, şagirdlərdə şifahi nitq bacarıqlarının inkişaf etməsi üçün onlar bir sıra bacarıq və vərdişlərə sahib olmalıdırlar. Biz bu bacarıqlara ilk növbədə müxtəlif xarici dil səslərinin, həmçinin sözlərin əmələ gəlməsində iştirak edən səslərin tələffüz olunması bacarığını daxil etmək olar. Nitq təcrübəsi olmalıdır ki, bu bacarıq onun təsiri altında möhkəmlənsin. Belə olduqda şagirdlər həmin səsləri asanlıqla tələffüz edə bilirlər. Əgər dərslər bu qaydada qurularsa, həm şagirdlər müxtəlif səs birləşmələrinin sözlərdə tələffüzünə öyrəşər, həm də müxtəlif cümlə tərkiblərində onları ayırd edə, həmçinin başqası danşarkən onun da fikrini aydın şəkildə başa düşə bilərlər. Bəzi metodlara görə əgər şagirdin tələffüzündə hər hansısa bir səhv olarsa, bu yalnız müəllim tərəfindən sözün düzgün tələffüz olunması ilə düzəldilə bilər. Amma müasir

metodlar bunun əksini deyir. Əgər şagirdlərin tələffüzündə yanlışlıq olarsa, bunu onların özlərinə həvalə edərək düzəldilməsini gözləyə bilərik. Belə olduqda şagirdlər çalışırlar ki, daha çox fəal olsunlar və bu cür səhvlərə yol verməsinlər.

Şagirdlərdə şifahi nitq bacarıqlarını inkişaf etdirmək üçün ən səmərəli yollardan biri də budur ki, oxuduqları mətni, nağılı və yaxud hekayəni öz sözləri ilə nəql edib danışsınlar. Bu zaman şagirdlər həm oxu tapşırığının məzmununu daha dərindən başa düşürlər həm də qrammatik normaları, idiomları, yeni sözləri öz nitqlərində daha da möhkəmləndirirlər.

Danışıq qabiliyyətinə öz müsbət təsirini göstərən daha bir yol isə şagirdlərin xarici dildə şeir əzbərləməsidir. Bu zaman şagirdlər həm öz intonasiyalarına diqqət yetirirlər, həm də misraları tez-tez təkrar etdiklərinə görə, sözlər daha çox dilə yatımlı olur.

Nitqin monoloji (tək) və dialoji (iki və daha çox) olmaqla iki forması məlumdur.

Şagirdlər monoloji nitqi əsasən üç mərhələ ilə mənimsəyirlər:

1. Birinci mərhələdə şagirdlər tək-tək cümlələri qurmağı öyrənirlər;
2. İkinci mərhələdə artıq tətk-tək cümlələri əlaqəli cümlələrlə əvəz etməyi öyrənirlər;
3. Sonuncu mərhələdə artıq hər hansı bir mövzuda danışmağı öyrənirlər.

Monoloji nitqdə olduğu kimi dialoji nitqin də mənimsənilməsinin üç mərhələsi mövcuddur:

1. Birinci mərhələdə şagirdlər dinləmə bacarıqlarını inkişaf etdirir;
2. İkinci mərhələdə dinlədiklərini təkrar; və
3. Üçüncü mərhələdə yaradıcı fəaliyyətlərlə məşğul olurlar. Məsələn, burada öyrənənlər onlara təqdim olunmuş şəkillərə uyğun gələn müvafiq sözlərdən istifadə etməklə dialoqlar hazırlaya bilərlər. Şəkil xarici dil dərslərində ən çox istifadə olunan vasitələrdən biridir. Çünki şəkil şagirdlərin daxili aləminə, hislər dünyasına təsir etməklə şifahi nitqin inkişafında mühüm rol oynayır. Məşhur rus pedaqoqu Uşinski yazır ki, əgər passiv şagirdlərin xarici dildə şifahi nitqlərini inkişaf etdirmək

istəyirsinizsə onlara şəkil göstərin. Bu üsul şagirdlərinizin öz fikirlərini ifadə etmələrinə səbəb olacaqdır [78].

a) Aşağıdakı adlarını sadaladığımız vasitələr də şagirdlərdə şifahi nitq bacarıqlarını inkişaf etdirmək üçün olduqca faydalıdır.

1. Şəkildəki obyekt, yaxud hadisələrin təsvirini vermək;
2. Təqdim olunmuş şəkillərə müvafiq adların verilməsi;
3. Şəkildə təsvir olunanlara əsasən söhbət etmək;
4. Şəkilə baxaraq danışmaq.

Dərs prosesində öyrənənlərin fəal şəkildə iştirakı onların xarici dildə ünsiyyət qurmaq və şifahi nitq bacarıqlarını da inkişaf etdirməyə ruhlandıracaq. Buna uyğun olaraq dörd bacarıq vardır ki, bunlar aşağıdakılardan ibarətdir. Bu bacarıqların hər biri şagirdlərin şifahi nitqinin inkişafına yönəlib.

1. İlk bacarığa müəllimlərin sözlərdən istifadə etmədən öyrənənlərlə ünsiyyət qurması daxildir.
2. Hər birində iki, yaxud daha artıq öyrənənin iştirak etdiyi qrup fəaliyyətləri hazırlamaq.
3. Öyrənənlərin dərsdə iştirakını qiymətləndirmək, onlarda motivasiya və marağın yaradılması.
4. Öyrənənlərin suallarını cavablandırmaq.

Şagirdlərin xarici dildə danışıq qabiliyyətini inkişaf etdirmək üçün növbəti səmərəli yol sual-cavab mühitinin yaradılmasıdır. Müəllim elə bir dərs mühiti yaratmalıdır ki, şagirdlər suallarını çəkinmədən verə bilsinlər. Səmərəli sual-cavab mühiti yaratmaq üçün müəllim aşağıdakı yollardan istifadə edə bilər.

1. Hansı şagird sual verirsə, həmin şagirdin sual vermək bacarığını tərifləməklə digər şagirdləri də suallar verməyə ruhlandıra bilərik.
2. Dəvət üsulu da kifayət qədər effektiv üsuldur. Müəllim hər hansısa bir şagirdi sual verməyə dəvət edir və gözləyir. Əgər şagird bir neçə dəqiqəlik susursa bu o demək deyil ki, onun sualı yoxdur. Əlbəttə ki, var. Sadəcə bir şeyi yadda saxlamaq lazımdır ki, tutarlı və məntiqli cavablar zaman aldığı

kimi, belə cavablar üçün verilən sualların verilməsi də müəyyən qədər vaxt tələb edir.

3. Şagirdlər üçün sərbəst dil mühiti yaradılmalıdır.

Şagirdlərin dərsdə şifahi nitq bacarıqlarını inkişaf etdirən ən məşhur üsul oyunlardan istifadə olunmasıdır. Sözləri, idiomları, cümlə quruluşlarını möhkəmlətməkdə və nitq vərdişlərini avtomatlaşdırmaqda oyunların əvəzsiz rolu var. Oyunlarda şagirdlərin yaş və bilik səviyyələri mütləq nəzərə alınmalıdır. Oyunu elə planlaşdırmaq lazımdır ki, o təkcə əyləncəyə çevrilməsin, daha çox öyrədici olsun. Çünki oyunun məqsədi dərsdə əylənmək yox, əylənərək öyrənməkdir. Dərsdə şifahi nitq bacarıqlarını təkmilləşdirmək məqsədilə müvaqfiq oyunlar tətbiq oluna bilər. Məsələn,

1. Müəllim hər hansısa bir mövzuya dair bir cümlə deyir və ardıcıl şəkildə digər şagirdlər də həmin mövzu ilə əlaqədar bir cümlə deyirlər. Kimin söylədiyi cümlə mövzu ilə əlaqədar olmasa, bu zaman həmin şagird oyundan çıxır. “Bizim məktəb”, “Sinif otağımız” kimi oyunlar buna nümunə ola bilər.
2. Sinifdəki şagirdlər iki qrupa bölünürlər. Daha sonra qruplardan biri hərflər deyir, digər qrup isə deyilən hərflərə uyğun sözlər deyir. Bu oyunda ən çox düzgün söz deyən qrup oyunun qalibi hesab olunur.

Gündəlik həyatımızda texnika çox geniş şəkildə istifadə olunduğu kimi tədris prosesində də texnikadan istifadə olunduqda şagirdlərin daha çox diqqətini çəkir, daha fəal olurlar həm də nitqlərinin inkişafına müsbət təsir göstərir. Texniki vasitə kimi dərsdə kino, diafilm, maqnitofon istifadə oluna bilər. Şagirdlər videomaqnitofon vasitəsilə videomaterialları (xarici filmlər, xaricdə keçirilən oyunlar, bayramlar, yarışlar, muzeylər, cizgi filmlər və s.) həvəslə izləyirlər. Bunun digər üstünlüyü odur ki, şagirdlər həm ingilis dilində danışıq, dinləyib anlama bacarıqları inkişaf edir, həm də izlədikləri videomaterialdan dünyagörüşü əldə etmiş olurlar. Maqnitofonun ən böyük üstünlüyü odur ki, şagirdlərə düzgün tələffüz məsələsinin həllində kömək edir. Digər bir üstünlük isə maqnitofonla tədris olunan ifadəli oxu prosesində

öyrənənlər səslərin və sözlərin düzgün tələffüz qaydaları ilə yanaşı tədris olunan dilin ahəngini və tempini, sözlərdə vurğunun yerini, düzgün intonasiya qaydalarını və s. dərindən mənimsəyə bilirlər.

Səmərəli texniki vasitələrdən biri də kompüterdir. Əgər məktəb hər bir şagirdə kompüter ayırmaq gücündədirsə, bu zaman kompüter vasitəsilə şagirdlər istənilən sözün həm tərcüməsinə baxa biləcəklər, həm düzgün tələffüz formasını dinləyə biləcəklər. Keçmişdə bir sözün tərcüməsinə baxmaq üçün dəqiqələrlə lüğətdən söz axtarmaq lazım gəlirdisə artıq bir neçə saniyə ərzində sözün tərcüməsinə və tələffüz qaydasına asanlıqla baxmaq olur. Hətta bunu sadəcə kompüterlə yox, müasir smartfonla da etmək mümkündür.

## 1.3. İnteraktiv metodlarla İngilis dilinin tədrisinin vəziyyəti

Günbəgün inkişaf edən dünyada digər bütün sahələrdə olduğu kimi təhsil sahəsində də inkişaf baş verir, tədris metodları daim dəyişir, yenilənir və daha da mükəmməlləşir. Bu yeni tədris metod və texnologiyaları, insanlara inkişaf edən dünyada mövqe tutmağa, dövrün inkişaf tempi ilə ayaqlaşmağa imkan verir. Aparılan araşdırmalara görə, əvvəllər insanların bir ildə aldıqları məlumatları, hazırda insanlar bir günə qəbul edirlər. İnkişaf elə sürətlə gedir ki, insanlar qazandıqları bilikləri istifadə edənə qədər artıq yeni biliklərin qazanılmasına ehtiyac olur. Bu səbəbdən də, müasir dövr insanları üçün öyrənmə bitməyən, daim davam edən bir prosesdir. Bu halda insanlar müstəqil öyrənməyi və öyrəndikləri bilik və məlumatları tətbiq etməyi bacarmalıdırlar. İnteraktiv və müasir təlim metodları da bu məqsədə xidmət edir.

XX əsrin sonlarından etibarən öz müstəqilliyini qazanan Azərbaycan Respublikasının qarşısında çox çətin və məsuliyyətli vəzifələrdən biri də təhsil sisteminin inkişaf etdirilməsi və beləliklə yeni qurulmuş dövlətimizin inkişafını təmin etmək idi. XXİ əsrin əvvəllərində ölkəmizdə ən müasir təlim metodlarından istifadəyə keçid başlanmış, təhsil sisteminə qayğı artmışdı.

Ayrı-ayrı təhsil sahələrinin inkişafı ilə bağlı mövcud vəziyyətin təhlil edilməsi ilə işlənib-hazırlanmış və təsdiqlənmiş proqramların həyata keçirilməsi ilə təhsil sisteminin müasir dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirilməsi, təhsilin məzmununun yenilənməsi və beləliklə, bütün bunlara uyğun yeni dərslik siyasətinin tətbiq edilməsi, öyrənənlərin əldə etdikləri müvəffəqiyyətlərin qiymətləndirilməsi əsasında yeni üsul və texnologiyaların tətbiq edilməsi, əmək bazarının tələbatını ödəyəcək uyğun kadrların hazırlanmasının həyata keçirilməsi, təhsil müəssisələrinin İKT vasitələri ilə təmin olunması və bu kimi bir çox mühüm uğurlar əldə edilmişdir. Bütün bu inkişaf Ulu Öndər Heydər Əliyevin bünövrəsini qoyduğu siyasi, sosial-iqtisadi, eləcə də mədəni-maarif kursunun nailiyyətləridir. Ulu Öndər tərəfindən əsası qoyulan bu inkişaf kursu ölkəmizin sabiq prezidenti İlham Əliyevlə müvəffəqiyyətlə davam etdirilir.

Ölkəmizdə hər bir sahədə müşahidə edilən sürətli inkişaf təhsil sahəsində də özünü biruzə verir. Ölkəmizin prezidenti İlham Əliyev belə bir əhəmiyyətli və dəyərli fikirlə çıxış etmişdir ki, ölkənin neft və digər maddi sərvətlərindən əldə olunan kapital, gəlir ölkəmizin insan kapitalının tərəqqisində istifadə edilməlidir. Günümüzdə təhsil ölkəmizin davamlı tərəqqi strategiyasının başlıca məqsədlərindən biridir [7, s.11].

Müasir dövrümüzün tələblərinə cavab vermək məqsədilə ümumi təhsil sisteminin yeni konsepsiyaları hazırlanarkən müasir dünya təcrübəsi rəhbər tutulmuşdur. Beləliklə, təhsil sisteminin məqsəd və vəzifələri müasir pedaqoji təfəkkür əsasında müəyyənləşdirilmiş, ayrı-ayrı fənn kurikulumları yaradılmış, məzmunda standart anlayışı reallaşdırılmışdır ki, bu da təhsil sahəsində ölkəmizin ən mühüm uğurlarındandır.

Ölkəmizin sosial-iqtisadi, eləcə də mədəni həyatında və təhsil sahəsindəki davamlı və sürətli inkişafı, cəmiyyət qarşısında bir sıra həlli mühüm məsələlər qoyur. Müasirləşən təhsilimizin qabaqcıl mövqeyinin qorunması, vəzifələrini icra etməsi və tərəqqisi milli-mənəvi, eləcə də üniversal dəyərləri mühafizə edən və təkmilləşdirən, geniş dünyagörüşünə sahib, edilən cəhdlərə və yeniliklərə qiymət verməyi bacaran, elmi-nəzəri və təcrübi biliklərə sahib, müasir

düşüncəli və rəqabət aparmağı bacaran kadrların yaradılmasından asılıdır. Bu məqsədlə tədrisdə ən müasir və interaktiv təlim metodlarından istifadə edərək Qərb dövlətlərinin elm və təhsil səviyyəsini ölkəmizə gətirə bilək.

İngilis dilinin tədrisi metodları ilə bağlı aparılmış çoxsaylı araşdırmalar interaktiv təlim metodlarının tədrisdə daha faydalı olduğunu aşkar etmişdir. Dərslərdə şagirdlərin müəllimdən daha aktiv olmasına əsaslanan interaktiv metodlar şagirdlərin öyrənmə motivasiyasını artırır, müstəqil öyrənməni təmin edir, qrupla işləmək bacarıqlarını formalaşdırır. İnteraktiv təlim metodlarında şagirdlər yalnız yeni məlumatlar, biliklər qazanmır, həm də bu bilikləri tətbiq etməyi öyrənir.

Daim təhsilə diqqət və qayğı göstərilən ölkəmizdə müasir təlim metodları XXİ əsrin əvvəllərindən tətbiq edilməyə başlanmışdır. Respublikamızın ümumtəhsil müəssisələrində bu müasir tədris metodlarının tətbiq edilməsi təhsil sahəsində aparılan islahatlarının əsasını təşkil etməkdədir. Bununla da, şagirdlər dərslərdə passiv deyil, aktiv fəaliyyət göstərərək, bilik, vərdiş və qabiliyyətlərini inkişaf etdirmək imkanı qazanırlar.

Ümumutəhsil müəssisələrində tədris prosesi elə təşkil olunmalıdır ki, şagirdlərin hər biri özünü bu tədris prosesinin mərkəzində hiss etsin. Müasir təhsilin şərtlərindən biri də odur ki, şagird dərslərdə hər zaman özünün aktiv, fəal öyrənməsi ilə ön planda olsun. Bu məqsədlə əvvəlcə ənənəvi müəllim-şagird münasibətlərində dəyişikliklər olmalıdır. Şagirdlər müəllimlərindən çəkinməməli, onlarla daim ünsiyyətdə olmalıdırlar. Müəllimlər də şagirdlərinin dərs boyu fəal mövqeyini təmin etmək üçün onlara müvafiq istiqamətlər verməli, onların aktiv fəaliyyət göstərmələrinə şərait yaratmalıdır. Bu zaman müəllim mediator, yəni vasitəçi funksiyasını icra edir [7, s.12].

Ölkəmizdə təhsil sahəsində hər nə qədər interaktiv, müasir metodlardan istifadə edilməsi ilə bağlı islahatlar keçirilsə, tövsiyələr verilsə də, orta təhsil müəssisələrində az sayda müəllimin bu təlim metodlarından istifadə etdiyi aparılan araşdırmalardan məlumdur. Orta məktəblərdə hələ də bir çox müəllim təlim prosesinin mərkəzində olur: əsas natiq müəllim olur, müəəlim danışır

şagirdlər isə dinləyir, şagirdlərin sinifdə aktiv olması müəllimləri əsəbləşdirə bilir, onların bir-birləri ilə müzakirələr aparması deyil, özlərinin sərbəst işləməsinə istiqamət verilir. Bu da şagirdlərin fəallığına mane olur. Kurrikulum sisteminin tətbiq edilməsi ilə bu probllem bəzi məktəblərdə qismən aradan qaldırılsa da, yenə də kurrikulum adı altında ənənəvi təhsil metodları ilə dərs keçən müəllimlərin olması halları ilə qarşəlaşılır.

Azsaylı müəllimlərin təcrübələri sübut edir ki, interaktiv təlim metodları həqiqətən də təhsilin keyfiyyətinin yüksəlməsinə, şagirdlərin daha yaxşı öyrənməsinə səbəb olur. Lakin müəllimlər hazır üsulları təqlid etməməli, dərsləri siniflərdəki şagirdlərin yaşına, bilik və qabiliyyətlərinə, intellektinə, dünyagörüşünə, mədəniyyətinə və s. uyğunlaşdırmalıdır.

Onu da vurğulamaq yerinə düşərdi ki, hər dərsdə eyni bir interaktiv təlim metodundan istifadə etmək effektiv olamaya bilər. Dərsdə istifadə ediləcək təlim metodu mövzuya və şagirdlərə uyğun seçilməlidir. Bunu unutmaq olmaz ki, təlim metodları inkişafa səbəb olduqları müddətcə faydalıdır.

Öyrənənlərin bacardıqları qədər öyrəndiklərindən və bacardıqları qədər xatırladıqlarından əmin olmaq üçün düzgün şəkildə öyrətmək vacibdir. Bu o deməkdir ki, müəllimlər çox vaxt əvvəllər heç öyrətmədikləri və əvvəllər heç öyrədilməmiş bir şəkildə öyrətməli olacaqlar. Müəllimlərin bu cür tədrisdən istifadə etməsinin bir səbəbi var. Müəllimlərə tədrisdə yalnız ənənəvi mühazirə yanaşmasını istifadə etməmələri tövsiyə olunur. Ənənəvi tədris yanaşması, bilikləri şagirdlərə ötürməyin ən az təsirli üsuludur. Öyrənənlərin xatırladıqlarının, istifadə olunan tədris metodlarından asılı olduğunu göstərən bir çox araşdırma və təcrübə olmuşdur. Şagirdlərin daha çox şagird-mərkəzli interaktiv tədris metodlarından istifadə edildikdə xatırladıqları məlumatların miqdarı artır. Ənənəvi mühazirə tərzi tədris metodlarından istifadə edildikdə yadda qalan məlumatların miqdarı daha az olur. Şagirdlərin öyrənmə və yadda saxlama qabiliyyətləri aşağıdakı kimi müəyyən edilmişdir:

- Mühazirələrdən istifadə edildikdə şagirdlər 5%;
- Şagirdlər özləri oxuduqda 10%;

- Audio-vizual metoddan istifadə edildikdə 20%;
- Məlumatları kiçik qruplar halında müzakirə etdikdə 50%;
- Şagirdlərə bir təsvir göstərilsə və sonra tətbiq etmələri tələb olunarsa, 75%;
- Şagirdlər başqalarını öyrətsə 90% xatırlaya biləcəklər [51, s.53].

Bunu aşağıdakı piramida ilə göstərə bilərik:




***Mənbə:*** *Francisca Sanchez. Interactive classroom strategies and structures for success: Focus on English learners.*

İnteraktiv metod 1990-cı ildə ortaya çıxdı. İnteraktiv təlim, öyrənmə prosesini məhsuldar edir ki, bu da idrak fəaliyyətinin xüsusi bir təşkili formasıdır. İnteraktiv metod çox konkret və proqnozlaşdırıla bilən məqsədləri özündə ehtiva edir. Bunlardan biri, şagirdlərin müvəffəqiyyətlərini, təlimin intellektual ardıcıllığını hiss etdikləri rahat bir təhsil mühiti yaratmaqdır. Dərsdə interaktiv öyrənmə metodlarının effektivliyi, sinifdə müvəffəqiyyətli tədrisə olan tələb və ehtiyac ilə artır. İnteraktiv tədris metodları tədris prosesini sürətləndirmək və uğur qazanmaq üçün bir çox təsirli fəaliyyət və yanaşma ehtiva edir.

İnteraktiv metodlara:

1. Kommunikativ dil tədrisi (Communicative Language Teaching);

2. Birbaşa metod, İnteraktiv metodlar (Direct Method);
3. Təbii yanaşma (Natural Approach);
4. Proprioseptiv dil öyrənmə metodu (Proprioceptive language learning method);
5. Səssiz üsul (Silent way);
6. Hekayə danışmaq (Storytelling) və s. [51, s.54].

Bütün şagirdlərin öyrənmə potensialına çatmalarına imkan verən ən əhatəli və təsirli təhsil vermək müəllimlərin zəruri və vacib məqsədidir. Orta və ağır koqnitiv – idraki qüsurları olan şagirdlər üçün bu məqsəd xüsusilə vacibdir. Əksər hallarda əlilliyi olan şagirdlər, inkişaf etməkdə olan həmyaşıdlarından fərqli olaraq fərqli bir savadlılıq təcrübəsinə məruz qalırlar. Müəllimlərin, bu şagirdlərin ehtiyaclarına uyğun olaraq təlimatlarını fərqləndirərək, danışıq ilə məşğul olmalarına və savadlılıq baxımından zəngin bir dünyada bilik və bacarıq qazanmalarına imkan vermələri vacibdir.

Bir qayda olaraq, ənənəvi təlim ilə interaktiv təlim arasında bir sıra mühüm fərqlər vardır ki, bunlardan ən başlıcası ənənəvi təhsil üsulundan istifadə edərkən dərsin gedişatında müəllim daha aktiv olub, əsas element olduğu halda, interaktiv təlim metodu ilə qurulmuş dərslərdə şagird daha fəal olur. Beləliklə, ənənəvi təhsil metodları müəllim mərkəzli, interaktiv təlim metodları isə şagird mərkəzli olur.

Ənənəvi təhsil metodlarına görə şagird biliyi müəllimdən alır, o, öyrənmək üçün müəllimdən asılı olur, lakin interaktiv metodlara görə şagird bilikləri özləri qazanır. Beləliklə, interaktiv təlim metodlarından istifadə şagirdlərin müstəqil öyrənmələrinə, öyrənmə proseslərinin məsuliyyətini daşımağa imkan verir. Şagirdlər yalnız müəllimdən və məktəbdən asılı olmur, geniş öyrənmə mənbələrinə sahib olur, məsələn, internet, sosial şəbəkələr, ictimai sorğular hazırlayaraq anket doldurma, layihələrin yazılması və s. İnteraktiv təlim metodları şagirdlərin öyrənmə əhatəsini genişləndirdiyi, onlara sərbəst öyrənmə imkanı verdiyi üçün bu metodla öyrədilən şagirdlər öz fikirlərini ifadə etməyi daha yaxşı bacarırlar.

Ənənəvi təlim metodlarından fərqli olaraq, interaktiv təlim metodlarından istifadə zamanı müəllimlər bir problem qoyur və şagirdlərin onu həll etməsini tələb edir. Bu da şagirdlərin yaradıcı və məntiqi intellektini inkişaf etdirir, onlarda birgə fəaliyyət göstərmə bacarığı formalaşdırır ki, bu bacarıqlar şagirdlərin gələcək gündəlik və iş həyatlarında uğur qazanmalarına kömək edir.

Dünya alimləri tərəfindən aparılan araşdırmalarda məlum olmuşdur ki, insanlar ömürləri boyu sahib olduqları biliklərin 50 faizdən çoxunu 6 yaşına qədər əldə edir. Bunun səbəbi isə, uşaqları bu yaşa qədər ətrafı sərbəst formada, təzyiq olmadan, tədqiqatçı kimi araşdıraraq öyrənməsidir. Məktəb mühitində öyrənmə fəaliyyəti müəllimin əlinə keçən, sərbəstliyi əlindən alınan uşaq öyrənmə prosesini və mühitini məhdudlaşdırmış olur, onların fəallığı müəllim tərəfindən məhdudlaşdırılır. Lakin interaktiv təlim metodlarının tətbiq olunduğu siniflərdə şagirdlə təlim prosesinin mərkəzində olduqlarına, sərbəst və qrup halında diskusiyalarla öyrənmələri təmin olunduğuna və əldə etdikləri məlumatları tətbiq etmə imkanları olduğuna görə daha yaxşı öyrəndikləri aşlar edilmişdir.

Interaktiv metodlar əsasında təşkil edilmiş dərslərin mərhələləri bunlardır:

1. Problemli vəziyyətin, yaxud motivasiyanın yaradılması;
2. Tədqiqatın aparılması;
3. Məlumat mübadiləsi;
4. Məlumatın diskusiyası və təşkil edilməsi;
5. Ümumiləşdirmələr apararaq nəticə çıxarma;
6. Yaradıcı iş;
7. Qiymətləndirmə mərhələləri [24, s.16].

Bu mərhələlərlə qısaca tanış olaq:

a) ***Problemli vəziyyətin, yaxud motivasiyanın yaradılması.*** Hər yeni dərsə başladıqda, müəllim ilk olaraq sinifdə işlənəcək mövzu ilə bağlı problemləri müəyyənləşdirir, yəni şagirdi düşünməyə, kəf edərək öyrənməyə vadar edəcək və yekun cavaba aparacaq uyğun suallar təşkil edir. Aparılan araşdırmalara görə, mövzu ətrafında problemlərin

qoyulması şagirdlərin aktivliyini artıraraq onların fəal öyrənmələrini təmin edir.

Bu mərhələnin həmçinin motivasiya mərhələsi kimi də adlandırılma səbəbi ondadır ki, motivasiya insanı bir fəaliyyəti görməyə təhrik edən və həvəsləndirən qüvvə kimi tərif edilir. Bu mərhələnin üstünlüklərindən biri şagirdlərin müstəqil düşünməsinə imkan verilməsidir. Şagird öz düşüncələrini "Düşünürəm ki, ...", "Elə hesab edirəm ki,...." kimi sözləri işlədərək öz fikirlərini dilə gətirirlər.

Motivasiya mərhələsini təşkil edən hissələri aşağıdakı kimi ümumiləşdirə bilərik:

- Mövzu ilə bağlı problemin qoyulması məqsədilə sualların və fəaliyyət növlərinin hazırlanması;
- İstiqamətverici sualların hazırlanması;
- Fərziyyələrin irəli sürülməsi.

İnsanda motivasiya yaradan bir sıra faktorlar vardır ki, bu faktorlar aşağıda qeyd edilmişdir:

- Şagirdlərin fərziyyələr irəli sürməsinə imkan verəm problemli vəziyyət;
- Obyektin müstəqil düşünmə, maraq yaradan və qeyri-adilik xüsusiyyətləri;
- Araşdırma aparmaq fürsəti;
- Yaradıcı olmaq fürsəti.

Şagirdlərdə motivasiya yaratmaq məqsədilə müəllim dərsin gedişatını aşağıdakı kimi qurmalıdır:

1. Şagirdlərə öyrədiləcək mövzu seçilir;
2. Mövzu ilə bağlı əldə edilməsi zəruri məsələlər diqqət mərkəzinə gətirilir;
3. Dərsin yekununda şagirdlərin gələcəkləri nəticələr müəyyən edilir;
4. Suallar mövzunun nəticələrinə uyğun şəkildə hazırlanır;
5. Problemli vəziyyətin təşkil edilməsi üçün müvafiq tapşırıqlar sistemi hazırlanır.

Motivasiya bir sıra kriteriyalar əsasında qiymətləndirilir:

1. Motivasiya nəticəsində mövzu ilə bağlı suallar qoyulmalı və problem qaldırılmalıdır;
2. Motivasiya qarşıya qoyulan məqsədə çatmağa imkan verməlidir;
3. Motivasiya ilə şagird qarşıya qoyduğu məqsədləri qısa bir müddətdə həyata keçirməlidir;
4. Motivasiyanın yaradılması üçün müəllim çox vaxt sərf etməməlidir.

b) **Tədqiqatın aparılması**. Birinci mərhələdə problemli vəziyyətin yaradılması, verilən sualların cavablarının tapılması, irəli sürülən fərziyyələrin doğru və ya yanlış olduğunun isbat edilməsi üçün şagirdlər araşdırmalar aparır, mövzunu təhlil edirlər. Bunu sxematik olaraq belə aşağıdakı kimi vermək olar [4, s.20]:




***Mənbə:*** *Ağayev Ə. Yeni təlimin metod və texnologiyalarından istifadənin nəzəri və praktik məsələləri.*

Tədqiqatlar istər kiçik qruplar, istər cütlüklər, istərsə də fərdi formada təşkil oluna bilər. Amma interaktiv təlim metodlarında daha çox qruplarla və cütlərlə iş dəstəklənir ki, şagirdlərin fəal öyrənməsi təmin edilsin.

c) İnteraktiv təlim metodları əsasında qurulmuş dərslərdə üçüncü mərhələ ***məlumat mübadiləsi*** mərhələsidir. Məlumat mübadiləsi mərhələsində şagirdlər tədqiqat mərhələsi zamanı əldə etdikləri məlumatları paylaşırlar. Qaldırılmış problemlə bağlı suallara cavabların tapılması məhz bu mərhələdə baş tutur. Bu mərhələdə şagirdlər tapdıqları məlumatları

paylaşacaqları üçün bu məlumatlara sistemləşdirərək qaydaya salırlar. Bu mərhələdə başlıca məqsəd şagirdlərin bir-biri ilə qarşılıqlı əlaqəyə girməsi ilə yeni biliklər əldə etməsini təmin etməkdir. Bu mərhələ müəllim sinifdə nizam-inrizama nəzarət edir, şagirdlərin hansı ardıcıllıqla təqdimat edəcəklərini müəyyənləşdirir, şagirdlərdən diqqətlərini danışan şagirdə yönləndirmələrini xahiş edir, şagirdlərdən danışan şagirdin təqdim etdiyi faktalara rəy bildirmələrini istəyir.

d) Dördüncü mərhələ ***məlumatın müzakirə və təşkil edilməsi*** mərhələsidir. İnteraktiv təlim metodlarının mərhələləri içərisində ən mürəkkəb olanı bu mərhələdir. Məlumatın müzakirə və təşkil edilməsi mərhələsində şagirdlər bütün bilik və qabiliyyətlərindən, eləcə də yaradıcı, tənqidi və məntiqi təfəkkürlərindən istifadə edirlər. İlk başda müəllimin əlindəki məlumatlar dağınıq halda olur. Bu məlumatları sistemli hala gətirmək üçün toplanılan məlumatlar müzakirə edilir və sistemli formada təşkil edilir. Bu sistemləşdirmə işi həyata keçirərkən, şagirdlər məlumatları oxşar və fərqli məlumatlar olaraq qruplaşdırır və oxşar məlumatları da müvafiq əlamətlərə əsasən təsnif edirlər. Burada müəllimin başlıca vəzifəzsi şagirdləri diskusiyaya cəlb etmək, şagirdlərinin fikirlərini dinləmək və öz fikirlərini şagirdlərə məcburi şəkildə qənul elətdirməyə çalışmamaqdır.

e) Növbəti mərhələ ***nəticə*** mərhələsidir. Bu mərhələ interaktiv dərslərin kulminasiya nöqtəsini təşkil edir də deyə bilərik. Nəticə mərhələsində şagirdlər əvvəlki mərhələlərdə əldə etdikləri məlumatları ümumiləşdirir, tapdıqları məlumatların onlara verilən suallara cavab verib–vermədiyi araşdırır, irəli sürdükləri fərziyyələr arasında gəldikləri nəticəyə uyğun fikirlər olub-olmadığını müəyyən edirlər.

f) ***Yaradıcı iş*** mərhələsi şagirdlərin mənimsədikləri bilikləri tətbiq etdikləri mərhələdir. Qazanılan biliklərin şagirdlərin yaddaşına həkk olunması, onların bacarıqlarını inkişaf etdirməsi üçün praktiki olaraq tətbiq edilməsi olduqca zəruridir. Bu səbəbdən də, müəllim şagirdlərə biliklərin tətbiq olunması üçün şərait yaratmalıdır. Yaradıcılıq ola bilər ki, növbəti

dərslərdə də həyata keçirilsin, yəni onun bir dərsin tərkibinə daxil edilməsi mütləq deyildir.

g) İnteraktiv dərslərdə sonuncu mərhələ ***qiymətləndirmə*** mərhələsidir. Qiymətləndirmə mərhələsində şagirdlərə səhvləri və düzləri barədə məlumat verilir, beləliklə şagird öz qüsurlarının fərqinə vararaq gələcək inkişafını təmin edir [4, s.17-25].

Daha əvvəl də qeyd edildiyi kimi, təsirli bir dərs yalnız mühazirə deyil. Effektiv dərs interaktiv tədris metodlarını əhatə edir. İnteraktiv tədris metodlarından istifadə etmək üçün effektiv dərsin elementlərini və interaktiv strategiyalardan istifadə edən dərs planına nələrin daxil edilməli olduğunu nəzərə almaq lazımdır.

Dərs planı, dərs məqsədinə çatmaq üçün lazım olan imkan verən məqsədləri, lazım olan materialları və avadanlıqları və məqsədə çatmaq üçün uyğun fəaliyyətləri müəyyən edir.

- Məqsədlərə çatmaq üçün lazım olan əsas bacarıqlar (lüğət, qrammatika və tələffüz kimi dil bacarıqları) və həyat bacarıqları (mədəni məlumatlar da daxil olmaqla) aktivləşdirmə məqsədləridir.
- Fəaliyyətlərin planlaşdırıldığı kimi həyata keçirilməsini təmin etmək üçün materiallar və avadanlıqlar dərs vaxtından əvvəl yaxşı müəyyən edilməli və təmin edilməlidir. Bunlara realilər (avtobus cədvəlləri və uşaqların hesabat kartları kimi real həyat materialları), əyani vəsaitlər, müəllimlərin hazırladıqları vəsaitlər, dərsliklər, flip chart və markerlər, yerüstü proyektor, maqnitofon və s. daxildir.
- Tapşırıqlar, ümumiyyətlə daha çox nəzarət edilən tapşırıqlardan (məsələn, təkrarlama) daha sərbəst formata keçir (məsələn, bir -biri ilə müsahibə). Onlar növ (məsələn, bütün qruplar, cütlər, fərdi) və modallıq (məsələn, danışmaq, dinləmək, yazmaq) baxımından müxtəlif olmalıdır.

Böyük rus alimlərindən, müasir pedaqoji psixologiya elminin əsasını qoyanlardan biri olan L.S.Viqotski yazır ki, təlim prosesi uşaqlardakı inkişafı qabaqlamalı, onların yaxın təşəkkül zonasına istiqamətlənməlidir. Elə təlim

mühiti yaradılmalıdır ki, şagirdlərin potensial imkanları üzə çıxsın. Bu məqsədlə şagirdlərə sahib olduqları potensial imkandan biraz daha çətin tapşırıqlar verilərək, müstəqil yerinə yetirmələri tələb edilə bilər [28, s.19].

Prof. Ə.Ə. Ağayev interaktiv təlim ilə bağlı aparığı tədqiqat nəticəsində qeyd edir ki, interaktiv təlim metodları dərsdə yaranan, təlim müddətində meydana çıxan şagirdlərarası öyrənmə münasibətlərini, birgə işləmək bacarığını, şagird ilə müəllim arasındakı qarşılıqlı ünsiyyət əlaqəsini özündə özündə ehtiva edir. İnteraktiv təlim metodları təlim müddətində öyrənmə və qarşılıqlı razılaşma, eləcə də şagirdlərin müəyyən qabiliyyət və keyfiyyətlərə yiyələnməsinə kömək edən vasitələrdir [4, s.60].

Aparılan araşdırmalarda həmçinin aşkar edilmişdir ki, şagirdlər xarici dildə danışıq bacarıqlarını yalnız sinif mühitində formalaşdıraraq, təkmilləşdirə bilirlər. Sinifdən kənarda onlar sadəcə söz ehtiyatının əldə edilməsi, tapşırıqların icrası və mətnlərin əzbərlənməsi kimi fəaliyyətlərlə məşğul olurlar. Bu səbəbdən də, şagirdlərin sinifdə mümkün qədər ünsiyyətə xidmət edəcək, onların danışıq qabiliyyətlərini inkişaf etdirəcək tapşırıqlara cəlb edilməlidirlər. Təsirli olması üçün tapşırıqlar orijinal mənbələrdən alınmalı və danışıq bacarıqlarının inkişafına xidmət etməlidir.

Ümumiləşdirmələr apardığımız zaman belə nəticəyə gəlirik ki, ölkəmizdə təhsil sistemində, əsasən də xarici dilin tədrisində müasir, interaktiv təlim metodlarından istifadə əsas götürülərək, fənn kurikulumlarına da daxil edilmişdir. Lakin hələ də bu metodları tətbiq edə bilən çox az sayda müəllim var və onların təcrübəsi bu metodların şagirdlərin inkişafına müsbət təsir etdiyini sübut edir. Odur ki, xarici dilin tədrisində interaktiv metodlardan istifadəni təmin etmək üçün ali məktəblərdə müəllim hazırlığına ciddi yanşılmalı, onlara müasir metodlardan istifadə bacarıqları aşılanmalıdır.

## Fəsil 2. İngilis dili dərslərində interaktiv tədris metodlarından istifadə

### 2.1. İnteraktiv metoddan istifadə texnologiyası

Biz artıq əvvəlki yazılarda interaktiv təlim zamanı şagirdin təlim prosesinin mərkəzində olduğunu, şagirdlərin aktiv düşünmə, tədqiqat, tətbiqetmə xüsusiyyətlərinin formalaşdığını qeyd etmişik. Yeni interaktiv texnologiyaya əsaslanan bu prinsiplərin həyata keçməsi, reallaşması o zaman mümkün olar ki, müəllim sinifdə ənənəvi tədris metod və üsullarından imtina etsin.

Tədrisin yeni pedaqoji texnologiya əsasları üzrə aparılmasında müəllim təşkilatçılıq və istiqamətvericilik funksiyalarını icra edərək şagirdlərin aktiv fəaliyyətini təmin etmiş olur. Bunun nəticəsində şagirdlər də fərdi və kollektivdə işləməyi və daha da məsuliyyətli davranmağı öyrənilər. Bununla onların interaktiv fəaliyyət imkanları artır, düşünmə, tapma qabiliyyətləri dərinləşir, intellektual səviyyələri yüksəlir.

Fərəhlə deyə bilərik ki, qarşılıqlı ünsiyyət, interaktiv fəaliyyət əsasında, yəni texnologiya yolu ilə tədris edilən mövzular və ümumiyyətlə bu üsul və metodların mahiyyəti şagirdlər tərəfindən tez bir zamanda anlaşılmış və sevilmişdir. Şagirdlər də bu üsul və metodlarla dərs keçilməsini bəyənir və dəstəkləyir. Yeni texnologiya əsasında dərsin nəticəsidir ki, indi onlar yarana biləcək hər hansı münaqişəni, yersiz mübahisəni aradan qaldırmaqda heç bir çətinlik çəkmirlər. Məhz yeni texnologiyanın dərsə tətbiqi əsasında müəllimlər şagirdlərində dostluq, mehribanlıq şəraitində kollektiv işləməklə hər hansı problemi həll etməyin mümkünlüyünə inam hissi oyada bilirlər.

Yeni texnologiyanın verdiyi imkan nəticəsində şagirdlər, eləcə də müəllimlər öz hüquq, borc və vəzifələrini başa düşmüşlər. Şagirdlər şəxsiyyət olduqlarını dərk etmişlər.

Yeni təlim texnologiya metodlarının tədris prosesində tətbiqi xarici ölkə pedaqogikasının nailiyyəti kimi təhsil sistemində geniş yayılmaqdadır. Bu da səbəbsiz deyil. Çünki müasir təlim üsullarının tədrisə inteqrasiyasında başlıca məqsəd planlı və düşünülmüş formada, əsas məsələ kimi şagirdlərin

interaktivliyini ön plana çəkməkdir. Xaricdə yaradılmış bu yeni pedaqoji texnologiya, yaxud da pedaqoji texnologiya təlim metodları ötən əsrin yetmişinci illərində ölkəmizin də daxil olduğu Sovetlər məkanının bəzi məktəblərində *proqramlaşdırılmış təlim* adı ilə tətbiq olunmağa başladı və müəyyən vaxtda bu, hətta bir dəb şəkli də aldı. Lakin hər işdə olduğu kimi, burada da tələm-tələsikliyə yol verildiyindən, necə deyərlər, qaş düzəltmək yerinə vurub gözü də çıxartdılar. Xarici ölkələrdə təlim pillə-pillə, mərhələ-mərhələ yeni texnologiya metodları ilə proqramlaşdırıldığı halda, bizdə bu metodlar bir dəb kimi tədrisə tətbiq edildiyindən qənaətləndirici nəticə vermədi.

Zehni fəaliyyətin aktivləşdirilməsi, şagirdlərin özünə inamının və yaradıcılığının inkişafı problemi elmin aktual problemlərindən biridir. Bir insanın fəaliyyətə və ünsiyyətə hazırlığı və qabiliyyəti kimi bacarıqların formalaşması üzrə təhsilin müasir istiqaməti, şagirdin yalnız intellektual və idrak fəaliyyətini deyil, həm də şəxsi sosial mövqeyini də göstərə biləcəyi pedaqoji və psixoloji şəraitin yaradılmasını nəzərdə tutur.

Öyrənmə prosesində şagirdlərin idrak fəaliyyətinin səviyyəsindən asılı olaraq passiv, aktiv və interaktiv öyrənməni ayırmaq olar. Passiv öyrənmədə şagird təhsil fəaliyyətinin obyekti kimi çıxış edir: müəllim və ya başqa bilik mənbəyi tərəfindən ona ötürülən materialı öyrənməli və çoxaltmalıdır. Bu ümumiyyətlə mühazirə-monoloq, ədəbiyyat oxumaq və ya nümayiş zamanı baş verir. Bu vəziyyətdə şagirdlər, bir qayda olaraq, bir-biri ilə əməkdaşlıq etmirlər və heç bir problemli, tədqiqat fəaliyyəti yerinə yetirmirlər.

Aktiv və interaktiv öyrənmədə şagird daha çox təhsil fəaliyyətinin subyektinə çevrilir, müəllim və pedaqoji prosesin digər iştirakçıları ilə dialoqa girir və yaradıcı, axtarış və problemli vəzifələri yerinə yetirərək idrak fəaliyyətlərində fəal iştirak edir. Şagirdlərin bir-biri ilə qarşılıqlı əlaqəsi, tapşırıqları cüt və qrup halında yerinə yetirərkən reallaşır.

Fransiska Sençez interaktiv təlimin əsas məqsədlərini belə ümumiləşdirir:

- Yüksək intellektual performans üçün şəraitin yaradılması;

- Hər bir şagirdin mədəni-linqvistik şəxsiyyətinin və özünə hörmətinin, özünü motivasiyasının və müstəqil öyrənməsinin, sosial bacarıq və səriştəsinin müsbət inkişafı və təsdiqi;
- Demokratik cəmiyyətin akademik səriştəli, çoxdilli, multikultural, təşəbbüskar, əxlaqi və sosial cəhətdən həssas üzvləri olmaq üçün şagirdlərin zəruri bacarıqlarının inkişafı;
- Çoxdillilik və multikulturalizm üçün yüksək statuslu mühitin inkişafı [51, s.31].

Klaud Bernard qeyd edir ki, interaktiv sinifdə iştirak edən şagirdlərin əksəriyyəti çətinlikdən və sinif yoldaşları ilə işləməkdən həzz alır. Lakin hər şeyə baxmayaraq, sinifdə hələ də passiv oturan, aktiv iştirakçı olmağa heç vaxt keçməyən bir neçə şagird var. Bununla bağlı o, belə bir fikir ifadə edir ki, interaktiv sinif otağının uğurla yaradılması şagirdlərin müstəqil öyrənmə qabiliyyətinə inanan, lazımi rəhbərlik və dəstək alan müəllim tələb edir. İnteraktiv sinif otağı öyrənmənin faktların ötürülməsindən çox anlayışlara, prinsiplərə və biliklərin tətbiqinə yönəldiyi yerə çevrilir. Bir çox cəhətdən sinif şagirdlərin bildiklərini deyil, bilmədiklərini öyrəndiyi yerə çevrilir [63, s.139].

Müəllim o zaman interaktiv təlim metodlarından istifadə edə bilər ki, bu metodlarla tədris etməyə hazır olsun. Müəllim bu müasir metodlardan istifadəyə hazır olub-olmadığını anlamaq üçün özündən aşağıdakı sualları soruşa bilər:

- Mən şagirdlərə hörmət etməyə və onlara şəxsiyyət kimi yanaşmağa hazırammı?
- Mən bərabərhüquqlu şagird-müəllim əlaqələri yarada bilərəmmi?
- Mən təlim prosesində şagirdlərin təfəkkürlərinin inkişafını təmin edə biləcəyəmmi?
- Mən istiqamətverici və nəzarətedici funksiyalarda çıxış edib, təlimin mərkəzində şagirdin olmasını bacaracağammı? [20, s.73]

Əgər müəllimlər bu suallara müsbət cavab versələr, deməli müasir, interaktiv təlim metodlarının tətbiqinə hazırdırlar.

İnteraktiv təlimin birinci mərhələsi olan motivasiya mərhələsində müəllim şagirdlərdə motivasiya yaratmaq və onları qiymətləndirmək qabiliyyətinə sahib olmalıdır. Motivasiya görülən hər bir işdə olduqca vacibdir, çünki motivasiya, maraq, istək olmadan hər hansı işi görmək üçün şagirdi vadar edən qüvvə də olmaz. Təlim prosesinin uğurla həyata keçirilməsi də motivasiyanın müvəffəqiyyətlə yaradılmasından asılıdır. Yuxarıdakı yazılarımızda da qeyd etdiyimiz kimi, problemli situasiyaların yaradılması şagirdlərdə idrak motivasiyası yaradaraq, müxtəlif fikir və fərziyyələr irəli sürməsinə yardımçı olur. Problemli situasiya motivasiyanın yaradılmasında və reallaşdırılmasında mövcud amillərdən sadəcə biridir. Digər amillərə aşağıdakıları daxil etmək olar:

- Mövzu ilə bağlı materiallar elə hazırlanmalıdır ki, onlar şagirdlərin diqqətini cəlb etsin və bu materiallar elə qurulmalıdır ki, şagirdlər cavabı tapmaq üçün öz təfəkkürlərini işə salmalıdırlar, axtarmalı, araşdırma aparmalı, müzakirələr etməlidirlər;
- Materiallar şagirdlərdə motivasiya yaradacaq formalarla və metodlarla təqdim edilməlidir;
- Şagirdlərə irəli sürdükləri fərziyyələri yoxlamaq və əldə etdikləri məlumatları təqdim etmək üçün fürsətlər verilməlidir;
- Şagirdlərə əldə etdikləri məlumat və bilikləri tətbiq etmək imkanı verilməlidir;
- Müəllim şagirdləri düzgün istiqamətləndirməyi bacarmalıdır [24, s.50].

Zülfiyyə Veysova interaktiv təlimlə bağlı qələmə aldığı kitabında motivasiyanın təşkil olunması üsullarının üç qrupunu təqdim edir:

1. Şəkil, simvol, melodiya, şeir parçası, rəvayət, qrafik və s. kimi simvolik materialın izah edilməsi. Bu cür simvolik materiallar təqdim edilərkən, müəllim şagirdlərə izah etmələrinə kömək edə biləcək suallar ünvanlayır: məsələn, “Şəkildə nə görürsünüz?”, “Gördüyünüz materialın öyrəndiyimiz mövzu ilə əlaqəsini müəyyənləşdirin” və s.
2. Müəllim şagirdlərdə sual vermək üçün maraq, həvəs oyatmalıdır. Şagirdlərin düşünmə qabiliyyətini aktivləşdirən üç növ sual ayırd edilir:

a) Təqdim edilən mövzu ilə əlaqədar bilinməyən məsələləri aşkar etmək üçün suallar: “.... barəsində hansı məlumatları bilirsiniz?”, “.... barəsində hansı məlumatları öyrənmək istərdiniz?” suallarını şagirdlərə ünvanlamaqla müəllim şagirdlərin fikrini lazım olan məsələlərə istiqamətləndirir. Sualların hamısı təqdim edildikdən sonra, şagirdlər onların arasından öyrəndikləri mövzu ilə bağlı olan, tədqiqat aparmalarına kömək edəcək sualları seçirlər.

b) Açıq suallar –sualların bu növündə şagirdlər yalnız bir cavb vermiyə bilərlər, bu sualların cavabları birdən artıq ola bilər. İnteraktiv təlimdə müəllimlərə qapalı suallardan daha çox “Nə üçün?”, “Hansı səbəbdən?”, “Hansı üsullarla?” kimi açıq suallardan istifadə etmələri tövsiyə olunur. Bu tipli suallar şagirdlərdə aktivlik yaradacaq və onların danışıq bacarıqlarının inkişafına səbəb olacaqdır.

c) Təqdim edilən mövzu ilə bağlı suallar verərkən əsas əlamətlər, səbəb, nəticə, vaciblik və s. kimi açar sözlərdən istifadə edilir.

3. Ayrı-ayrı üsullarla qarşıya qoyulmuş problemin həlli (nümunə kimi, qarşıya qoyulmuş problemlərin təsnifatının verilməsi, problemlərin fərqli üsullarla həll edilməsi və ya həll edilməsi üçün fürsətlər, baş verən hadisələrin bir neçə səbəbinin mövcudluğu) [24, s.50-51].

Ə.Ağayev isə motivasiyanı yaradan amillər sırasında aşağıdakıları qeyd edir:

- Şagirdlərin fərqli fikirlər irəli sürə bilməsi üçün problemli situasiyanın yaradılması;
- Obyektin qeyri-adi, müstəqil düşüncə və maraq yaradan xüsusiyyətləri;
- Mövzu ilə bağlı araşdırma aparmaq imkanının olması;
- Şagirdlərin yaradıcılığına şərait yaradılması [4, s.18].

Şagirdlərdə motivasiya yaradıldıqdan sonra interaktiv təlimin ən mühüm mərhələlərindən biri olan tədqiqat mərhələsi gəlir ki, bu mərhələdə bir çox müxtəlif texnikalardan istifadə edərək bilik və məlumatların qazanılması prosesi

həyata keçirilir. İlk olaraq, tədqiqat mərhələsində müəllimin sahib olması zəruri xüsusiyyətlərə nəzər salaq:

- Bildirdiyimiz kimi, interaktiv dərsin qurulmasında çoxsaylı metodlar vardır ki, müəllim bu mərhələdə hansı metoddan istifadə olunmasını müəyyənləşdirə bilməlidir;
- Tədqiqat işinin böyük və ya kiçik qruplarda, cütlər, yaxud fərdi formada təşkil olunmasına qərar verir;
- Şagirdlərin tədqiqatı uğurla həyata keçirə bilmələri üçün tapşırıqları və mənbələri müəyyənləşdirir;
- İş vərəqlərini tərtib edir [24, s.51].

İnteraktiv dərsin təşkil olunması üçün mövcud olan çoxsaylı üsullar müəllimlərin seçim şansını artıraraq, daha effektiv dərs keçməsinə kömək etsə də, həmçinin hansı üsulun seçilməsi baxımından onlara problem də yarada bilir. Bu zaman müəllimi "Üsulları hansı kriteriyalar üzrə seçməliyəm?" sualı düşündürür.

Bu kriteriyaları Zülfiyyə Veysova kitabında iki yerə ayırır:

- İstifadə ediləcək texnikanın məqsədinə əsasən bölgü. Məsələn, məqsədi bilik olan təlimdə istifadə olunacaq metod və texnikalara "beyin fırtınası", "klaster", "təqdimat", "müşahidə"; məqsədi dərk etmə/qavrama olan təlimdə istifadə ediləcək metod və texnikalara "diskusiyalar", "suallar"; təlimin məqsədi tətbiq etmək olduqda "rollu oyunlar" və "problem həlli" kimi metodlardan; əldə edilmiş məlumatları analiz etmək məqsədilə "debat", "modelləşdirmə", "kub" metodlarından; sintez etmək məqsədilə yaradıcılığı stimullaşdıran metodlardan; qiymətləndirmə məqsədilə isə kriteriyalar üzrə qiymətləndirmə metodundan istifadə edilə bilər. Bu təsnifat amerikalı alim B.Blum tərəfindən verilib və "Blumun taksonomiyası" adlanır (taksonomiya ardıcıllıq şəklində təşkil edilmiş əlaqəli sistemə deyilir) [24, s.52-54].

**Cədvəl 1.** Blumun taksonomiyası* üzrə təsnifat

| TƏLİMİN MƏQSƏDLƏRİ | METOD VƏ TEXNİKALAR |
|---|---|
| Bilik | "Əqli hücum", Klaster, Təqdimat, Müşahidə |
| Anlama | Diskussiya, Suallar |
| Tətbiq | Rollu oyun, Problemin həlli |
| Analiz | Debatlar, Modelləşdirmə, Kub |
| Sintez | Yaradıcılığı stimullaşdıran üsullar |
| Qiymətləndirmə | Meyar üzrə qiymətləndirmə |

**Cədvəl 2.** Hafizə və təfəkkür növlərinin inkişafı üzrə təsnifat

| TƏLİMİN MƏQSƏDLƏRİ | TEXNİKALAR |
|---|---|
| Hafizə | Ümumi sorğu, "Əqli hücum", Klaster, Söz assosiasiyaları |
| Məntiqi təfəkkür | Diskussiya, Modelləşdirmə, Situativ praktikum, Sosioloji tədqiqat, Alqoritm üzrə təsvir, "ən mühümü" |
| Tənqidi təfəkkür | Rollu oyun, Diskussiya, Modelləşdirmə, Situativ praktikum, Debatlar, Meyar üzrə qiymətləndirmə |
| Yaradıcı təfəkkür | "Əqli hücum", Rollu oyun, Modelləşdirmə, Morfoloji qutu, Proqnozlaşdırma, Layihələr |

***Mənbə:*** *18. Veysova Z. Fəal / interaktiv təlim.*

Göründüyü kimi, yaddaş və düşünmə növlərinin inkişafı ilə əlaqədar da təsnifat hazırlanmışdır.

- İstifadə ediləcək texnikada mühüm olan fəaliyyətə əsasən bölgü.

**Cədvəl 3.** Metodun əsasını təşkil edən aparıcı fəaliyyət üzrə təsnifat

| № | METOD | TEXNİKALAR |
|---|---|---|
| 1 | Beyin həmləsi | • «Beyin həmləsi» və ya «Əqli hücum» (Brainstorming)<br>• BİBÖ (KWL)<br>• Auksion (Auction)<br>• Klaster (Cluster)<br>• Suallar (Questioning)<br>• Anlayışın çıxarılması<br>• Söz assosiasiyaları<br>• Sinektika |
| 2 | Müzakirələr | • Diskussiya (Discussion)<br>• Çarpaz müzakirə (Debate)<br>• Müzakirə xəritələri (Discussion map)<br>• Klassik dialoq (Sokrat dialoqu)<br>• "Akvarium"<br>• Açıq iclas (Forums)<br>• Dairəvi müzakirə |
| 3 | Rollu oyunlar | • Rollu oyun (Role play)<br>• Modelləşdirmə (Simulation)<br>• İşgüzar oyunlar (Business play)<br>• Səhnələşdirmə (Dramatize) |
| 4 | Prezentasiyalar | • Təqdimatlar (Demonstration)<br>• Ekspert qrupu (Panels)<br>• Esse (Esse) |
| 5 | Tədqiqatın aparılması | • Problemin həlli (Problem solving)<br>• Kublaşdırma (The cube)<br>• Konkret hadisənin araşdırılması (Case study)<br>• Venn diaqramı (Venn diagram)<br>• Layihələrin hazırlanması (Projects)<br>• Sosioloji sorğu (Sorğu vərəqləri )<br>• Müsahibə (Interview)<br>• "Qərarlar ağacı"<br>• "İdeyalar xalısı"<br>• Refleksiya (Reflection) |
| 6 | Məntiqi təfəkkür proseslərinin inkişafına yönəldilmiş metodlar | • «Alqoritmin çıxarılması - analizdən sintezə»<br>• «Ən mühümü»<br>• «Tapşırıqlar qrupu üçün süjet əsasının yaradılması»<br>• Qaydalara əsasən oyunlar: oyun-tapmaca, oyun-yarış.<br>• Alqoritm üzrə təsvir (zəncirlər) |

| | | |
|---|---|---|
| 7 | Tənqidi təfəkkür proseslərinin inkişafına yönəldilmiş metodlar | • Meyar üzrə qiymətləndirmə<br>• Ambivalent qiymətləndirmə<br>• Cisim və ya hadisəyə müxtəlif nöqteyi-nəzərdən baxılması (Viewpoint) |
| 8 | Yaradıcılığa yönəldilmiş metodlar | • Yaradıcı əsərlərin yaradılması<br>• Əşyaların qeyri-adi istifadəsi<br>• Proqnozlaşdırma (Prognosis)<br>• Atalar sözləri üzrə iş<br>• Fantaziyanın binomu<br>• Sərbəst prefiks (ön şəkilçi)<br>• Fantaziyanın polinomları<br>• Fokal obyektlərin metodu<br>• Morfoloji qutu (morfoloji analiz, təkmilləşdirmə)<br>• Sinektika |
| 9 | Təşkilati metodlar | • Ziqzaq və ya Mozaika (Jigsaw Puzzle)<br>• Karusel (Carousel) |
| 10 | Qruplara bölünmə | • «Say».<br>• «Ad günləri sırası üzrə say»<br>• «Ümumi xüsusiyyət»<br>• «Püşkatma»<br>• «Mozaika»<br>• Sosiometrik üsul<br>• «Mahnı axtarışında» |
| 11 | Fəallaşdırma | • Müsbət iş iqliminin yaranmasına imkan yaradan oyunlar (Climate setters)<br>• Buz əridən oyunlar (Ice breakers)<br>• Fəallaşdırma oyunları (Energizers) |

***Mənbə:*** *Veysova Z. Fəal / interaktiv təlim.*

Müəllim, hər bir metod və texnikanın özünəməxsus əlamət və xüsusiyyətlərini bilməli, onları təlimin məqsədinə uyğun seçməyi bacarmalıdır. Lazımi üsul və texnikanı seçməzdən öncə müəllim, şagirdlərində yaratmağa və inkişaf etdirməyə çalışdığı bilik, eləcə də bacarıqları müəyyənləşdirməlidir. Belə ki, müəllim dərs zamanı məqsədləri müəyyən edərkən qarşıya qoyduğu məqsədlərə çatmaq üçün lazım olan metodları da bu məqsədə uyğun olaraq seçməlidir. Hansı metod və texnikanın tətbiq edilməsinə qərar verərkən diqqətə alınması mühüm olan digər kriteriyalara aşağıdakıları aid etmək olar:

- ✓ Seçilən metod və texnikanın tətbiqinə lazım olan vaxt;
- ✓ Şagirdlərə öyrədilən mövzunun məzmununun əhəmiyyətlilik dərəcəsi;

- ✓ Dərsin mərhələsi [24, s.55].

Tədqiqatın uğurla həyata keçirilməsində metodla yanaşı tapşırıqların və bilik mənbələrinin də düzgün seçilməsi olduqca mühümdür. Tapşırıqlarda şagirdlərdən tələb olunan fəaliyyətin növü, axtarışı aparmaq üçün açar söz, eləcə də açar söz öz əksini tapmalıdır. Eyni zamanda, seçilən tapşırıqlar şagirdlərə sahib olduqları bilik, eləcə də bacarıqları necə nümayiş etdirə biləcəkləri baxımdan istiqamət verməlidir, yəni tapşırıqda təqdimat forması da öz əksini tapmalıdır.

İnteraktiv təlim zamanı tədqiqat mərhələsində fəaliyyətlər qrup halında da təşkil edilə bilər. Bu halda 1. Həm müəllim, həm də şagirdlər qrup işinin əməkdaşlıq, qarşılıqlı hörmət, aktivlik kimi başlıca prinsiplərini; 2. Müəllim öz üzərinə düşən vəzifələri (təşkilatçı, vasitəçi, fasilitator (asanlaşdırıcı) və s.); 3. Şagirdlər isə qrup halında işləmək üçün lazımi qaydaları bilməlidirlər.

Tədqiqat mərhələsi üçün müəyyən edilmiş vaxt başa çatdıqdan sonra müəllim bunu şagirdlərə söyləyir və şagirdlər tədqiqat mərhələsində əldə etdikləri məlumatları təqdim etməyə başlayırlar. Bu mərhələdə başlıca məqsəd şagirdlərin hər birinin yeni məlumatlarla tanış olmasına şərait yaratmaqdır. Bu mərhələnin uğurlu tətbiq edilməsi üçün şagirdlərin hər biri məlumatı təqdim edən sinif yoldaşını fəal və diqqətli bir şəkildə dinləməlidir. Buna nail olmaq üçün müəllim sinifdə xaos yaranmamasına nəzarət etməli, şagirdlərin diqqətini danışan yoldaşlarına tərəf yönləndirməli, çıxışla bağlı öz fikir və rəylərini bildirmələrinə şərait yaratmalı, hər bir şagirdin çıxış etməsini ardıcıl şəkildə təmin etməlidir.

Müəllim şagirdlərin aktivliyini təmin etmək məqsədilə onlardan çıxış edən şagirdə suallar verməlƏrini xahiş edə bilər və ən yaxşı sual sahibi şagirdi müəyyən formalarda mükafatlandıra bilər.

Növbəti mərhələ məlumatların müzakirə və təşkil edilməsi mərhələsidir ki, bu mərhələdə məlumatların müqayisə, analiz və sintez üsulları ilə sistemləşdirilməsi prosesi həyata keçirilir. İlk başda müəllimin əlindəki məlumatlar dağınıq halda olur. Bu məlumatları sistemli hala gətirmək üçün

toplanılan məlumatlar müzakirə edilir və sistemli formada təşkil edilir. Bu sistemləşdirmə işi həyata keçirərkən, şagirdlər məlumatları oxşar və fərqli məlumatlar olaraq qruplaşdırır və oxşar məlumatları da müvafiq əlamətlərə əsasən təsnif edirlər. Burada müəllimin başlıca vəzifəzsi şagirdləri diskusiyaya cəlb etmək, şagirdlərinin fikirlərini dinləmək və öz fikirlərini şagirdlərə məcburi şəkildə qənul elətdirməyə çalışmamaqdır.

Nəticə mərhələsində müəllim şagirdlərdən əvvəlki mərhələlərdə əldə edib sistemləşdirdikləri məlumatları yığcamlaşdırıb, ümumiləşdirib nəticə çıxarmalarını xahiş edir. Ümumiləşdirmələr apardıqdan sonra müəllim, şagirdlərə bu məlumatların tədqiqatın əsas sualına cavab verib-vermədiyini, irəli sürülən fərziyyələr içərisində bu məlumatlara uyğun gələn birinin olub-olmadığını müəyyənləşdirmələri üçün lazımi istiqaməti verir.

Hər bir metodda olduğu kimi, interaktiv təlim metodları ilə qurulmuş dərs zamanı da müəllim müəyyən problemlərlə üzləşə bilər. Bu səbəbdən də, müəllimlər bu metodu tətbiq etməzdən öncə bu metodla bağlı yarana biləcək problemləri, onların yaranma səbəbləri və həll olunma yollarını araşdıraraq öyrənməli və dərsini elə təşkil etməlidir.

## 2.2. İnteraktiv tədris metodlarının təsnifatı

Savadlı müəllimlər çevik, diqqətli və həssasdırlar, şagirdlərini ən yaxşı şəkildə necə cəlb etmələri və onları öyrənmək üçün necə motivasiya etmələri barədə hər zaman açıq fikirlidirlər və bu da sinifdə fərqli interaktiv tədris texnikalarını sınamağı nəzərdə tutur. İnteraktiv tədris texnikaları sadə bir prinsip ətrafında tərtib edilmişdir: praktiki tətbiq olmadan şagirdlər çox vaxt öyrənilən materialın dərinliklərini dərk edə bilmirlər. Bu texnikalardan ən çox istifadə olunanları ilə qısa şəkildə tanış olaq:

1. **Beyin fırtınası və ya Əqli hücum (Brainstorming).** Beyin fırtınası, müəyyən bir problemi həll etmək üçün fikir yaratmaq və bilik mübadiləsi üsuludur və iştirakçılar fasiləsiz düşünməyə təşviq olunur. Beyin fırtınası, hər bir iştirakçının ağlına gələn fikirləri bölüşdüyü bir qrup fəaliyyətidir.

Müzakirənin sonunda fikirlər təsnif edilir və sonrakı hərəkətlər üçün sıralanır. Bir beyin fırtınası sessiyası planlaşdırarkən, mövzunu dəqiq bir şəkildə təyin etmək vacibdir. Spesifik bir mövzu düşüncəni aktivləşdirə bilər, düzgün müəyyən edilməmiş mövzu kifayət qədər birbaşa tətbiq olunan fikirlər yaratmayacaq. Beyin fırtınası qrupunun tərkibi də vacibdir. Buraya birbaşa mövzu ilə əlaqəli insanlar, habelə yeni və gözlənilməz fikirlər verə biləcək insanlar daxil edilməlidir. İnteraktiv beyin fırtınasının növləri bunlardır:

- Strukturlaşdırılmış və strukturlaşdırılmamış;
- Tərs və ya mənfi düşüncə;
- Nominal qrup əlaqələri;
- Söhbət, forumlar və e -poçt kimi onlayn qarşılıqlı ünsiyyət;
- Komanda fikirlərinin xəritəsi;
- Qrup keçidi;
- Fərdi beyin fırtınası.

Beyin fırtınası metodunun icra edilməsi ardıcıllığı belədir:

1) Müəllim həll edilməsi üçün problemi şagirdlərə bildirir;
2) Aparıcı təyin olunur. Aparıcı müəllim də ola bilər, şagirdlərdən də seçilə bilər. Onun vəzifəsi məlumatları axtarmaq üçün düzgün istiqamətləndirməkdir.
3) Şagirdlər ilk ağıllarına gələn fikirləri tez, yığcam formada dəqiq ifadə edir. Bu fikirlər elmi, zarafatyana, həqiqətdən uzaq və s. ola bilər. İrəli sürülən fikirlərə qiymət verilmir və onlar tənqid edilmir. Başlıca məqsəd kifayət qədər çox fikir əldə etməkdir.
4) Qısa zaman dilimində irəli sürülən fikirlərin hər birini mediator lövhədə, dəftərdə, video, yaxud audiokasetdə qeyd edir.
5) Irəli sürülmüş ideyalar təhlil olunur. Aparıcı bu ideyaları müəyyən kateqoriyalar (açar söz, təsvirlər, simvollar və s.) üzrə qruplara ayırır.

6) Bundan sonra artıq bu ideyaların tənqidi müzakirəsi aparılır, qiymətləndirilir [51, s.95].

2. **Diskusiyalar.** Müzakirə bütün fənlər üzrə öyrənmək üçün vacibdir, çünki bu, şagirdlərə məlumatı almaqdan daha çox emal etməyə kömək edir. Müzakirəyə rəhbərlik etmək mühazirədən fərqli bacarıqlar tələb edir. Müzakirənin məqsədi şagirdlərə dərs materialı üzərində düşünməyi öyrətməkdir. Müəllimin buradakı rolu fasilitator (asanlaşdırıcı) olur. Müəllimlər məlumat ötürmək yerinə müzakirəni təşkil edir. Müəllim müzakirə zamanı özü danışmamalı, şagirdlərə mühazirələr deməməlidir, əksinə şagirdlərin öz aralarında fikir mübadiləsi etmələrinə imkan yaratmalıdır. Aydın bir məqsədin olması, müzakirəni planlaşdırmağı çox asanlaşdırır. Müəllim şagirdlərinin bu müzakirədən nə əldə etmələrini istədiyini bilir. Lakin bu kifayət deyil. Əgər müəllim şagirdlərin aktiv bir şəkildə müzakirəyə qoşulmalarını istəyirsə, problemli bir situasiya yaratmalı, həllini axtaracaqları bir məsələ təklif etməlidir. Şagirdləri istiqamətləndirərkən onlara dəqiq, qısa və tək bir cavabı olan qapalı suallar yerinə, müzakirəyə açıq olan, birdən artıq cavab ehtimalı olan, onların düşünmə bacarıqlarını fəallaşdıracaq açıq tipli suallar vermək lazımdır [51, s.163].
3. **3.** Akvarium metodu şagirdlərdə diskussiya etmək vərdişlərini formalaşdırmaq və təkmilləşdirmək məqsədi daşıyır. Bu metod bir neçə formada tətbiq edilə bilər. Bu formalardan birində diskusiyaların qaydaları şagirdlər tərəfindən müəyyən olunur. İki qrupa ayrılan şagirdlərin bir qrupu müzakirəyə qoşulur, müəllimin onlara ünvanladığı suallar ətrafında müzakirələr aparırlar. İkinci qrup şagirdlər kənarda əyləşərək müşahidə aparır, müzakirənin düzgün aparılıb-aparılmadığını müəyyənləşdirirlər.




***Mənbə:*** *Ağayev Ə. Yeni təlimin metod və texnologiyalarından istifadənin nəzəri və praktik məsələləri. s.30*

Bu metodun təşkil edilməsinin ikinci formasında yenə də, birinci qrup şagird müəllimin verdiyi mövzu ətrafında müzakirələr aparır, lakin bu dəfə əks-dəlillərin müzakirəsi aparılır, yəni problemin həllini yox, problemi yaradan səbəblər müzakirə edilir. Digər müşahidəçi qrup isə onların fikirlərini qeyd edib təhlil edərək öz fikirlərini hazırlayır və daha sonra qruplar yerini dəyişir. Bu dəfə ikinci qrup öz fikirlərini irəli sürür [51, s.144].

**4.** Amerikalı alimlər Con Patrik və Riçard Reminin hazırladığı "qərarlar ağacı" metodu [61, s.12-15]. Bu metod çətin, asanlıqla anlaşılmayan situasiyalarda qərar verməyi və bu zaman əsas götürülən səbəbləri təhlil etməyi və qavramağı asanlaşdırmaq məqsədi daşıyır. Bu metod mübahisəli məsələlərin şagirdlərə aydınlaşdırılmasında istifadə edilə bilər. O, şagirdlərin məlumatları cəlbedici şəkildə ümumiləşdirmələrinə, eləcə də qiymətləndirmələrinə imkan verir. "Qərarlar ağacı" metodu ilə şagirdlər bütün mümkün məlumatların müxtəlif variantlarını, həmçinin də bu məlumatlarla əlaqədar ayrı-ayrılıqda müsbət və mənfi xüsusiyyətləri təsnif edərək təhlil edirlər. Dərsin gedişatında şagirdlər aşağıda təqdim edilmiş cədvəli doldururlar [24, s.98]:

*"Qərarlar ağacı" problem*




***Mənbə:*** *Ağayev Ə. Yeni təlimin metod və texnologiyalarından istifadənin nəzəri və praktik məsələləri. s.31*

**5.** Rol oyunları. Bu metod şagirdlərə xarici dilin öyrədilməsində ən təsirli metodlardan biridir. Tədris edilən mövzunun şagirdlər tərəfindən qavranılmasını asanlaşdırmaq məqsədi daşıyan rol oyunları əsasən kiçik improvizasiya-pyesdir. Rol oyunlarında müəyyən personajın rolunu icra edən şagird həmin personajın xüsusiyyətlərini, daxili aləmini və s. daha yaxşı öyrənir, həmçinin danışıq qabiliyyəti formalaşır və inkişaf edir. Rol oyunları metodundan istifadə edərək tapşırıqlar seçərkən şagirdlərin dil biliyi,dünyagörüşü, mədəniyyətlərarası səriştəsi və s. nəzərə alınmalıdır. Müəllim rolları ülə müəyyən etməlidir ki, şagirdlər arasında rolların icrası zamanı münaqişə yaranmasın. Rollar yazılarkən, yığcam və sadə dildən istifadə edilməlidir [24, s.85].

**6.** Suallar. Şagirdlərin koqnitiv aktivliyinin artırılması və düşünmə qabiliyyətlərinin inkişafı baxımından suallar böyük əhəmiyyət kəsb edir. Suallar yeni məlumat və biliklərin qazanılmasında, eləcə də tədqiqatın həyata keçirilməsində mühüm rola malikdir. Suallar, əsasən də tədqiqat mərhələsi zamanı tədqiqatın aparılmasına təkan və istiqamət verir. Düzgün və konkret sualı hazırlamaq və əldə edilən informasiyaları əlaqələndirmək qabiliyyəti, həmçinin məntiqi və tənqidi düşünmə bacarığını formalaşdıraraq inkişaf etdirir. Sualların sayı, onların

təsviriliyi, açıq və ya qapalı olması kimi amillər sualların keyfiyyəti barədə məlumat verir [24, s.71].

**7.** Auksion. Bu metodun başlıca məqsədlərinə obyekt və baş verən hadisələrin əlamətlərini öyrənmək, bilik və qavramanı təşkil etmək, əldə edilən biliklərə aktual xarakter qazandırmaq, təlim prosesini, qiymətləndirməni və qulaq asma qabiliyyətini inkişaf etdirməkdir. Bu metodun sinifdə tətbiqi qaydası belədir:

a) Müəllim ilk olaraq öyrəniləcək obyekti, yaxud hadisəni şagirdlərə söyləyir;

b) Daha sonra o, şagirdlərə auksion metodunun qayda və şərtlərini izah edir:

- Şagirdlər onlara söylənilən obyekt, yaxud hadisəyə aid əlamətləri söyləyir;
- Şagirdlərin hər biri ardıcıl olaraq öz fikirlərini söyləyirlər;
- Söylənilən hər fikirdən sonra 2-yə qədər sayılır, bu müddətdə yeni fikir söylənilə bilər, amma əgər yeni fikir olmazsa sonuncu fikri söyləyən qalib gəlir;
- Söylənilən fikirlər yeni olmalı, digər şagirdlərin söylədiklərini təkrarlamamalıdır, bu səbəbdən də hər kəs bir-birinə qulaq asır;
- Müddəti 5-7 dəqiqə olur [24, s.69].

**8.** R.Kennedy, şagirdlərin müxtəlif yollarla öyrəndiklərini və bu səbəbdən də təhsildə müxtəlif təlim metodları və qiymətləndirmə formalarının təmin edilməsinə ehtiyac olduğunu bildirdi [58, s.185]. A.Oros [60, s.300] və M.Jackson [55, s.150] kimi akademiklərin fikrinə görə, debatlar bu metodlardan biridir. Bir tədris vasitəsi olaraq debatlar qədim Yunanıstana gedib çıxır, Sofiss, Protagor və Aristotel onun ən erkən istifadəçiləri idi. Təlim prosesində debatların istifadəsi şagirdlərin hər birinin aktiv şəkildə müzakirəyə qatılmasını təmin edir. Diskussiyanın mübahisə, rəy mübadiləsi və müzakirə kimi digər növləri ilə müqayisədə, debatlar iki qrup arasında olmur, nlar bir-birilərini deyil, üçüncü tərəfi inandırmağa çalışırlar. Bu zaman üçüncü tərəfin öhdəsinə düşən vəzifə hər bir kəsi

ayrı-ayrılıqda dinləyib qərar verməkdir. Üçüncü tərəf seçimini onu inandıranlardan yana etməlidir. Qarşı tərəfi inandırmaq üçün şagirdlər tədqiqat aparmaq, sübutlarla işləmək, çıxış etmək (natiqlik), çarpaz sualların hazırlanması bacarığına sahib olmalıdırlar [24, s.79].

**9.** BİBÖ cədvəli. "Beyin fırtınası" ilə dərsə başlayan müəllim şagirdləri cütlüklər halında qruplaşdırır və daha sonra hər hansı bir mövzu ilə əlaqədar sual verir. Məsələn, "Siz yarasalar barəsində nə bilirsiniz?"

Cütlüklər sual ilə bağlı müzakirələr edərək, bildikləri məlumatları kağızda yazarkən, müəllim də lövhədə BİBÖ cədvəli adlanan aşağıdakı cədvəli çəkir.

| Biz artıq nəyi bilirik | Biz nəyi bilmək istəyirik | Biz nə öyrəndik və hələ nə öyrənməliyik |
|---|---|---|
| | | |

***Mənbə:*** *Veysova Z. Fəal / interaktiv təlim.*

Cütlüklərə düşünmək üçün verilən vaxt bitdikdən sonra, hər bir cütlük öz biliklərini paylaşır və bu məlumatlar ümumiləşdirilərək cədvəldə "Biz bu haqda nə bilirik?" başlıqlı cərgədə yazılır. Növbəti addım kimi müəllim, şagirdlərə mövzu barəsində daha hansı məlumatları bilmək istədiklərini soruşur və şagirdlər bu sual ətrafında müzakirələr etdikdən sonra öz fikirlərini söyləyir və müəllim bu fikirləri cədvəlin ikinci cərgəsinə yazır.

| Bildiklərimiz | İstəyirik bilək | Öyrəndiklərimiz |
|---|---|---|
| 1.Təlim olunmağa meyllidirlər.<br>2.Məməlilər sinfinə aiddir.<br>3.Xəzər dənizində yaşamır. | 1.Çoxalması haqqında<br><br>2.Daha hansı dənizlərdə yaşayırlar? | |

***Mənbə:*** *Ağayev Ə. Yeni təlimin metod və texnologiyalarından istifadənin nəzəri və praktik məsələləri.*

Daha sonra müəllim mövzu ilə əlaqəli şagirdlərə bir mətn paylayır. Şagirdlər mətni oxuduqdan sonra öyrəndikləri yeni məlumatları

ümumiləşdirərək cədvəlin üçüncü cərgəsində qeyd edirlər. Ən son olaraq müəllim öz fikirlərini söyləyir, şagirdləri qiymətləndirir və dərs bitir [24, s.68].

**10.** Ziqzaq oxu (Jigsaw reading). Bu metodun əsas məqsədlərinə əməkdaşlıq və təşkilatçılıq bacarıqlarını inkişaf etdirmək, qrup və komanda birliyi yaratmaq, ünsiyyət və dinləmə bacarıqlarından istifadə etmək, şifahi dili və tənqidi düşünmə bacarıqlarını inkişaf etdirmək, xüsusi mövzularda öyrənmə/baxış qurmaq, təqdimat üçün məlumatları təşkil etmək daxildir. Bu metodun tətbiqi üçün yarım saat vaxt ayrılır və kiçik qruplar halında tətbiq edilir.

Müəllim tədqiq olunan mövzu ilə əlaqəli bir məqalə və ya digər oxu materialı təyin edir. Bu seçimdə oxu materialını bölməyə imkan verən müəyyən hissələr, fəsillər və ya təbii kəsilmə nöqtələri olmalıdır. Şagirdlər dörd nəfərlik qruplar halında işləyirlər. Hər qrup oxu materialının bir hissəsini alır. Qrup həmin hissəni oxumaq və sonra sinifə öyrətməkdən məsuldur. Mətni oxumaq üçün qrup öz seçimini ya hər üzvün fərdi oxuması, ya cüt oxuyaraq və ya bir oxucu seçərək oxunması baxımından edir. Oxuduqdan sonra qrup oxuduqları mövzunu müzakirə edir. Qrup müzakirəsi çərçivəsində qrup oxuduqları əsas məqamları (3-5 əsas fikir) müəyyənləşdirir. Qrup, aşağıdakılar da daxil olmaqla seçimlərini təyin etmək üçün qrafikdən istifadə edir:

- ✓ əsas fikirlər;
- ✓ fikirlərin qrafiki təsviri;
- ✓ məlumatın qrupun bəzi şəxsi təcrübələrini necə təsdiq etdiyini, göstərdiyini və ya ziddiyyət təşkil etdiyinin göstəricisi;
- ✓ qrupun bu öyrənmələri necə tətbiq edə biləcəyinə dair bir təklif.

Hər qrup öz "dərsini" təqdim edir [51, s.120].

**11.** Mini dramlar. Bu metodun əsas məqsədlərini əməkdaşlıq və təşkilatçılıq bacarıqlarını inkişaf etdirmək, ünsiyyət və dinləmə bacarıqlarından istifadə etmək, idraki bacarıqlarla yanaşı şifahi dili də inkişaf etdirmək, spesifik mövzularda araşdırma/sintez/tətbiq qurmaq təşkil edir. Bu metod

kiçik qruplar halında tətbiq edilir və müddəti mövzunun çətinlik dərəcəsindən, həcmindən asılı olaraq dəyişir.

Hər qrupa bir hekayə, tarixi mövzu və s. mətndən bir hissə verilir. Hər qrup mətninin/materialının dramatik bir təqdimatını hazırlamaqdan məsuldur. Bütün qrup üzvləri mini dramada oynayır. Hər bir qrup üzvü ayrıca müəyyən bir rol oynayır:

- Direktor – Bütün qrup üzvlərinin səylərini əlaqələndirməkdən məsuldur. Qrupun tapşırığı vaxtında yerinə yetirdiyinə və bütün lazımi komponentləri mini dramaya daxil etdiyinə əmin olur. Aktyorların personajlarının təfsiri ilə bağlı təkliflər verir. Qrup üzvlərinin töhfələrini müsbət qiymətləndirir.
- Ssenarist – Minidramanın ssenarisi üçün əsas məsuliyyəti öz üzərinə götürür. Bütün qrup üzvlərindən ssenari ilə bağlı fikir əldə etməyi təmin edir. Aktyorlar üçün ssenarinin surətini çıxarır.
- Xüsusi effektlər – Mini dramada istifadə ediləcək hər hansı bir rekvizit, kostyum və səs effektləri üçün tənzimləmə. Bütün qrup üzvlərindən xüsusi effektlər üçün fikir əldə etməyi təmin edir.
- Quruluşçu – Səhnə dəyişikliklərinin koordinasiyasından, aktyor/aktrisanın çıxış zamanından və çıxışlarından məsuldur.
- Dublyor – Bütün aktyor və prodüser hissələri ilə tanışdır və qrupda olmayan hər hansı bir üzvü doldura bilər. Həll olunmayan hər hansı bir problem yaranarsa müəllimlə əlaqə qurur [51, s.124].

**12.** Qar topası metodu. Məqsədləri araşdırılmış bir mövzunu nəzərdən keçirmək, biliklərdən real məqsədlər üçün istifadə etmək, tənqidi düşünmə, sintez, araşdırma və problem həll etmə bacarıqlarından istifadə etmək olan qar topası metodu cütlər və ya qruplar halında və 40 dəq müddətində tətbiq edilir. Hər bir şagird özünə tərəfdaş tapır. Hər cütlükdə şagirdlər öyrəndikləri mövzu ilə əlaqədar bir suala və ya problemə cavab verirlər. Sualı bir nəfər yazır. Digər şəxs cavabı ayrı bir vərəqə yazır. Şagirdlər kağızlarını toplayırlar. Şagirdlər sualları bir tərəfdə, cavabları

digər tərəfdə qar topu formasında yerləşdirirlər. Müəllimin işarəsi ilə şagirdlər "qartopularını" atırlar. Müəllimin dayanma siqnalında hər kəs bir qartopu götürüb onun qarşılığı olan qartopunu tapmağa çalışır. Yeni cütlüklərdə şagirdlər suallarını və cavablarını oxuyurlar, sonra cavabı yoxlamaq və cavabın doğru olduğuna dair sübutlar (mənbələr) vermək üçün öz mənbələrindən (dərslik, mövcud digər çap materialları, afişalar və s.) istifadə edirlər. Lazım gələrsə, şagirdlər cavabı yenidən nəzərdən keçirirlər. Şagirdlər də bu mövzuda qrup və ya sinif resurs kitabları yaratmaq üçün işlərindən istifadə edə bilərlər [51, s.130].

**13.** Hekayə qrafikləri. Bu metodun başlıca məqsədləri əməkdaşlıq bacarıqlarını inkişaf etdirmək, qrup işi və komanda birliyi yaratmaq, ünsiyyət və dinləmə bacarıqlarından istifadə etmək, şifahi dil bacarıqlarını inkişaf etdirmək, artıq təqdim olunan məlumatları yenidən qurmaqdır. Kiçik qruplar halında təşkil edilən bu metodun tətbiq edilmə müddəti 60 dəqiqədir. Müəllim şagirdlərlə bir ədəbiyyat və ya məzmun hekayəsi paylaşır. Şagirdlərin vəzifəsi hekayəni öz baxışlarından, şərhlərindən və anlayışlarından "yenidən yaratmağa" çalışmaqdır. Şagirdlər bu metodu dörd-altı nəfərlik qruplar halında tətbiq edirlər. Hər bir qrup müəllim tərəfindən verilən kateqoriyalara uyğun olaraq diaqram çəkmək üçün qrafik kağızından istifadə edir. Məsələn, bir ədəbiyyat parçası üçün kateqoriyalar parametrlər, personajlar, süjet üstdən, başlanğıc, orta, son isə yuxarıdan aşağı doğru ola bilər.

| | Parametrlər | Personajlar | Süjet |
|---|---|---|---|
| Başlanğıc | | | |
| Orta | | | |
| Son | | | |

***Mənbə:*** *Francisca Sanchez. Interactive classroom strategies and structures for success: Focus on English learners. 2010, 182 p.*

Qrupun vəzifəsi, hekayəni bu kateqoriyalara uyğun olaraq yenidən qurmaqdır. Hekayə cədvəlində heç bir çapdan istifadə edilə bilməz və qrupun

hər bir üzvü ən azı 4 bloka fiziki olaraq töhfə verməlidir. Qrup üzvləri, əsas məlumatların çatdırılması üçün hekayə qrafiki bloklarının hər birini necə daha yaxşı təsvir etməyi müzakirə edirlər [51, s.108].

**14.** T-sxemlər. Bu metodun başlıca məqsədlərinə təşkilatçılıq bacarıqlarını inkişaf etdirmək, yeni məlumatlar təşkil etmək, savadlılıq bacarıqlarını real məqsədlər üçün istifadə etmək, artıq təqdim olunan məlumatları yenidən qurmaq daxildir. Cütlər halında təşkil edilən bu metodun tətbiq edilmə müddəti mövzunun çətinliyindən asılı olaraq dəyişir. Şagirdlər bir mövzunun iki ölçüsünü çəkmək üçün T-qrafikdən istifadə edirlər; mövzunun aspektlərini müqayisə etmək/əks etdirmək; mövzunun aspektləri arasındakı əlaqələr; və s. T-sxemi qurmaq üçün şagirdlər mövzunun adını yazırlar və altına böyük bir T çəkirlər. T-nin sol tərəfini bir aspekt və ya ölçü ilə, T-nin sağ tərəfini isə araşdırılacaq digər aspekt və ya ölçü ilə adlandırırlar. Hər bir başlığın altında şagirdlər, adı işləkləşdirən və ya izah edən və ya təmsil edən bir sıra maddələr yazırlar. Cütlər, nəticələrini digər cütlərin əldə etdiyi nəticələrlə müqayisə etmək üçün T-sxemləri paylaşırlar. Daha sonra cütlər öz T-sxemlərinə qayıdır və paylaşımdan öyrəndiklərinə əsaslanaraq onları dəyişdirirlər [51, s.109].

| Heyvanlar | Quşlar |
|---|---|
| Tükləri olur | Lələkləri olur |
| Canlı bala dünyaya gətirir | Yumurta qoymaqla çoxalır |
| Analar balalarını əmizdirir | Balalar qida yeyir |
| İstiqanlıdır | İstiqanlıdır |

**15.** Şaxələndirmə və ya klaster. Bu sinif fəaliyyəti və ya qrup layihəsi ola bilər. Qruplara klasterlərin qurulacağı bəyanatların siyahısı verilir. Şaxələndirmə metodundan fikirləşməyə istiqamətləndirmə, eləcə də fikirləşmə mərhələsində istifadə edilir. Dərsin başlanğıcında, mövzu təqdim edilərkən ilk olaraq şagirdlərin diqqətini mövzu üzərinə yönləndirmək və bu barədə mövcud biliklərini xatırlamaları üçün bu

metod istifadə edilə bilər. Şaxələndirmə metodu tətbiq olunarkən hər bir ideyadan yeni ideya, hər mövzudan yeni mövzu yaranır, yeni əlaqələrin əmələ gəlməsi üçün fürsətlər doğur. Bu metod istər fərdi, istər cütlər, istərsə də kiçik qruplar şəklində təşkil edilə bilər. İcrası sadə və yadda qalan olan şaxələndirmə metodunda prosedurlar aşağıdakı kimi olur:

- Böyük ağ vərəq götürülür.
- Vərəqin mərkəzində istənilən bir söz, termin, cümlə və s. verilir.
- Bu verilmiş söz, ifadə və ya cümlə şaxələrə bölünür və yeni ideyalar qeyd edilir.

Bu metod şagirdlərin həm mövzu ilə bağlı mətn öyrənilməzdən əvvəl keçmiş biliklərini yada salmaları üçün, həm də mətn öyrənildikdən sonra mətndən öyrəndiklərini müəyyənləşdirmək üçün tətbiq edilə bilər [24, s.70].

Bu metodların sayı olduqca genişdir və onların hər birini təqdim etmək üçün dissertasiyanın həcmi kifayət deyildir. Burada bəhs olunanlar bu metodların sadəcə onda birini təşkil edir desək, yanılmarıq və dissertasiyada ən çox istifadə olunan və istifadə olunması məsləhət görülən metodları araşdıraraq təqdim etməyə çalışdıq. Müəllimlər dərslərini təşkil etməzdən öncə öyrədəcəkləri mövzuu və ona uyğun istifadə edə biləcəkləri metodları nəzərdən keçirməli və ən uyğun olanını tətbiq etməlidir.

### 2.3. İngilis dili dərslərində interaktiv metodlardan istifadənin səmərəliliyinin öyrənilməsinə dair eksperimental tədrisin nəticələri

Tədrisin yeni forma və metodlarının axtarışı çoxşaxəli və müstəqil şəxsiyyətin formalaşmasına yönəldilməli olan uğurlu müasir təhsilin zəruri şərtidir. Buna görə də, xarici dillərin tədrisi metodologiyasında interaktiv təlim metodlarından istifadəyə xüsusi diqqət yetirilir ki, onların köməyi ilə şagirdlərin tədris fəaliyyətində yüksək fəallığına nail olunsun. Əsas amil ondan ibarətdir ki, xarici dil dərslərində interaktiv metodlardan istifadə şagirdlərin motivasiyasını

və marağını artırır ki, bu da şifahi nitq bacarıqlarının formalaşdırılması prosesinə müsbət təsir göstərir.

Bizim fərziyyəmizə görə, xarici dil dərslərində interaktiv təlim metodlarından istifadə etməklə orta məktəb şagirdlərində şifahi nitq vərdişlərinin formalaşdırılması prosesi daha səmərəli olacaqdır. Bu fərziyyə eksperimental iş prosesində öz təsdiqini tapır.

Təcrübəmizin məqsədi şifahi nitq bacarıqlarının formalaşdırılması üçün xarici dilin tədrisinin interaktiv metodlarının effektivliyini sübut etməkdir.

Qarşıya qoyulmuş məqsədə uyğun olaraq, aşağıdakı kimi problemləri həll etməli idik:

- Şagirdlərin şifahi nitq bacarıqlarının formalaşmasının ilkin səviyyəsini təhlil etmək;
- şifahi nitq bacarıqlarının formalaşmasına yönəlmiş interaktiv tədris metodlarından istifadəni tətbiq etmək;
- şifahi nitq bacarıqlarının formalaşdırılması prosesində interaktiv tədris metodlarından istifadənin tətbiqi ilə eksperimental işlərin aparılması üçün kontrol və eksperimental qrup seçmək;
- eksperimentdən sonra şagirdlərdə şifahi nitq bacarıqlarının formalaşma səviyyəsinin yekun təhlilini aparmaq və istifadə olunan metodların səmərəliliyini qiymətləndirmək.

Qarşıya qoyulmuş vəzifələri həll etmək üçün aşağıdakı üsullardan istifadə etdik:

- Müşahidə – məqsədyönlü, əvvəlcədən hazırlanmış plana uyğun olaraq, şəxsiyyətin təzahürlərini və ya tədqiqatçını maraqlandıran fəaliyyətləri təyin etmək. Müşahidə bizə dərsdə hansı metodlardan istifadə edildiyini, eləcə də şagirdlərin dərsdə nə dərəcədə fəal olduqlarını öyrənməyə imkan verdi.
- Məktəb sənədlərinin öyrənilməsi – şagird nailiyyətlərinin səviyyəsini müəyyən etməyə imkan verdi.

- Söhbət – psixologiyada şəxsiyyətin tədqiqinin sorğu metodlarından biridir. Bu üsul qruplarda nizam-intizamın dərəcəsini və şagird
- lərin motivasiyasını müəyyən etməyə kömək edirdi.
- Anket – əvvəlcədən hazırlanmış formalardan istifadə etməklə sorğunun yazılı şəkildə aparılması prosedurudur (anketlər respondentlərin özləri tərəfindən doldurulur). Sorğu şagirdlərin dərsdə interaktiv metodlardan istifadəyə marağının dərəcəsini müəyyən etməyə imkan verib.
- Yoxlama – subyektlərin bir sıra xüsusi tapşırıqları yerinə yetirmə üsullarını təhlil etməklə vərdiş, bacarıq və biliklərin, qabiliyyətlərin və digər şəxsiyyət xüsusiyyətlərinin səviyyəsini, habelə onların müəyyən normalara uyğunluğunu müəyyən etməyə imkan verən tədqiqat metodudur. Bu üsul bizə şagirdlərin fəaliyyət səviyyəsini öyrənməklə yanaşı, istifadə etdiyimiz interaktiv metodların effektivliyini müəyyən etməyə imkan verdi.

Eksperimental iş 3 mərhələdən ibarət idi:

- sınaqdan əvvəlki mərhələ;
- əsas mərhələ;
- Son mərhələ.

Hər mərhələdə yuxarıda təsvir olunan üsullardan istifadə edilmişdir. Bu metodların köməyi ilə biz şagirdlərin səviyyəsinə, fərdi xüsusiyyətlərinə və istəklərinə uyğun dialoq nitq vərdişlərinin formalaşdırılması prosesində lazımi məlumatları öyrənə və interaktiv təlim metodlarından istifadəni tətbiq edə bildik.

**Bakı şəhərinin 306 nömrəli məktəbində 2021-2022-ci tədris ilində pedaqoji təcrübə zamanı eksperimental iş aparılmışdır. Eksperimentə 1-ci sinifdən ingilis dilini öyrənməyə başlayan 7-ci sinif şagirdləri cəlb olunmuşdur.**

Eksperiment zamanı şifahi nitq bacarıqlarının formalaşdırılması prosesi üçün interaktiv təlimin effektivliyini müəyyən etmək məqsədilə 7A sinif şagirdləri arasında xarici dilin tədrisinin bəzi interaktiv üsulları sınaqdan keçirilmişdir. Bu üsullar şagirdlərdə şifahi nitq bacarıqlarını inkişaf etdirməyə

yönəldilmişdir. Təcrübədə eyni sayda şagirdin olduğu iki qrup iştirak etdi. Bunlardan biri eksperimental qrup (10 nəfər) idi ki, burada ingilis dili dərsində şagirdlərin təhsil fəaliyyətinə cəlb edilməsini təşviq etmək üçün interaktiv tədris metodlarından istifadə edilmişdir. Digər qrup isə ənənəvi təlim formasının istifadə olunduğu və istifadə etdiyimiz metodologiyanın effektivliyini qiymətləndirməyə imkan verən kontrol qrupu idi (10 nəfər). Hər iki qrupda dərslər kurikulumun tələblərinə uyğun təşkil edilirdi.

Müşahidə zamanı eksperimental mərhələdə biz ingilis dili dərslərini təhlil etdik, onların nəticələri diaqram şəklində faizlə göstərilmişdir (Şəkil 1).

Dərs prosesi yeni üsulla eksperimental qrupun şagirdlərinə magistrant tərəfindən keçirilmişdir. Kontrol qrupun dərsləri isə onlara dərs deyən müəllim tərəfindən keçirilməyə davam etmişdir. Magistr-müəlliminin apardığı dərslərin təhlili zamanı məlum olub ki, ənənəvi tədris metodologiyası üstünlük təşkil edir: 55%. Belə dərslərdə iş əsasən birbaşa dərsliklə aparılır ki, bu da şagirdlərin dərsi hazırlamaqda yaradıcılıq nümayiş etdirməsinə imkan vermir; bu üsul xarici dil öyrənmək üçün motivasiyanın artırılmasına bir növ maneədir. Bəzi dərslərdə cütlərlə iş kimi interaktiv metoddan istifadə edilmişdir. İngilis dili dərslərində şagirdlərin cütlərlə işinin təşkili göstərdi ki, bu, həm əqli əməliyyatları yüksək səviyyədə olan, həm də zəif şagirdlərin təfəkkür müstəqilliyini inkişaf etdirmək üçün səmərəli vasitədir. Bunun nəticəsində mövzuya maraq artır və sosial ünsiyyət bacarıqları inkişaf edir. Lakin burada cütlərlə işləməkdən başqa heç bir interaktiv metoddan istifadə olunmayıb. İştirak edilən dərslərin heç birində oyun texnikalarından istifadə göstərilməyib. Qeyd etmək yerinə düşər ki, dərslərdə interaktiv üsul kimi oyunlardan istifadə dərsin əvvəlindən axıra kimi şagirdlərin marağını saxlamağa və diqqətini saxlamağa imkan verir. Bundan əlavə, interaktiv oyun üsulları şagirdlərə məktəb kurrikulumunu daha yaxşı öyrənməyə və xarici dil öyrənmək üçün özlərinə stimul yaratmağa imkan verir.




***Şəkil 1.*** Tədris metodları

Həmçinin dərsləri və onların sonrakı təhlillərini müşahidə etməklə yanaşı, bir ingilis dili müəllimi ilə söhbət etmək qərarına gəldik. Söhbət zamanı öyrəndik ki, hər iki qrupun şagirdləri nizam-intizamlı, ünsiyyətdə fəal olsalar da, şagirdlərin əksəriyyətində xarici dil öyrənmək motivasiyasının aşağı olması şagirdlərin dərsə marağının azlığından xəbər verir.

Qeyd etmək vacibdir ki, məktəb sənədlərinin tədqiqi və ilkin sınaq imtahanının nəticələrinin təhlili şagirdlərin orta akademik göstəricilərə malik olduğunu göstərdi ki, bu da yeni materialı yadda saxlamaq qabiliyyətinin yaxşı olduğunu göstərir. Şagirdlərin yaddaşı, diqqəti və təfəkkürü yaxşı inkişaf edib.

***Cədvəl 4:*** İlkin sınaqların nəticələrinin müqayisəli təhlili

| Xal | Eksperimental qrupun nəticələri | Kontrol qrupunun nəticələri |
|---|---|---|
| “5” | 3 | 2 |
| “4” | 3 | 4 |
| “3” | 4 | 4 |

Eksperimental sınaqlara gəlincə, o, 2 mərhələni əhatə edirdi: yazılı və şifahi. Yazı mərhələsi aşağıdakı tapşırıqlardan ibarət idi: əvəzetmə tapşırığı (dialoqdakı boşluqların doldurulması); transformasiya məşqi (söz sırasının

dəyişməsində ifadə olunan replikaların çevrilməsi); replikaların müqayisəsi (dialoqun tərtib edilməsi). Bu testin ikinci mərhələsində şagirdlərə plan əsasında konkret situasiya üzrə dialoq qurmaqdan ibarət olan cütlərlə işləmək təklif olundu (suallara cavablar). Hər bir tapşırıq üçün şagirdlərə xallar verilirdi, bu ballar yekunlaşdırılaraq yekun qiymətdə nümayiş etdirildi.

Belə ki, müşahidə, dərslərin təhlili, söhbət, sorğu-sual və sınaqların nəticələri hər iki qrupda şagirdlər arasında şifahi nitq bacarıqlarının formalaşmasının təxminən eyni ilkin səviyyəsini göstərdi.

Eksperimental hissənin nəticələrini yekunlaşdıraraq, biz oyun simulyasiya texnologiyalarına əsaslanan xarici dilin tədrisinin interaktiv metodlarına üstünlük vermək qərarına gəldik. Bu interaktiv tədris metodları şagirdlərin marağına səbəb olacaq və ingilis dili dərslərində motivasiyalarnı artıracaq. Təcrübə zamanı şifahi nitq bacarıqlarının inkişafina yönəlmiş tədris ədəbiyyatı və interaktiv tədris metodlarından istifadə edilmişdir.

Eksperimental iş zamanı biz “Karusel”, “Rollu oyun”, “Qərarlar ağacı”, “Akvarium”, “Beyin hücumu” kimi üsulları sınaqdan keçirdik. Bu yekun ixtisas işinin həcmi tədris təcrübəsi zamanı istifadə olunan bütün interaktiv metodları təhlil etməyə imkan vermədiyi üçün biz aşağıda təsvir olunan aşağıdakı metodlar üzərində daha ətraflı dayandıq.

Tədqiqatımız zamanı istifadə etdiyimiz interaktiv metodlardan biri “Karusel” interaktiv metodudur. Şagirdlər iki halqa yaratdılar: daxili və xarici. Daxili halqa hərəkətsiz oturan, xarici dairəyə baxan şagirdlər, xarici halqa isə hər 2 dəqiqədən bir dairənin ətrafında hərəkət edən şagirdlərdir. Xarici dairənin şagirdlərinə “Summer holidays” mövzusunda müəyyən parametrləri olan kartlar verildi, bunun əsasında şagirdlər bir neçə dəqiqə ərzində daxili dairədən olan həmsöhbətlə dialoq qurdular.

Cütlərlə müzakirə üçün parametrlər:

- *How did I spend the summer holidays?*
- *The advantages of summer holidays by the sea.*
- *The disadvantages of summer vacation in the city.*

- *The summer holidays in the village.*
- *The best place for summer vacation.*

Beləliklə, bütün şagirdlər cəlb olundu və hər bir şagird 10 dəqiqə ərzində bir neçə mövzunu müzakirə etməyi bacardı.




***Şəkil 2:** "Karusel" metodunun təsviri*

Eksperimental işimizdə istifadə etdiyimiz "Akvarium" adlı üsul da şagirdlərin şifahi nitq bacarıqlarını inkişaf etdirmək üçün səmərəli üsuldur. Bu üsul tamaşaçıların müşahidəçi kimi çıxış etdiyi "tamaşa"dır. Beləliklə, eksperimental qrupdakı şagirdlərin hər bir cütündən müəyyən mövzulara əsaslanaraq, onları səsləndirmədən "akvarium dialoqu"nu nümayiş etdirmək tapşırılıb. Dialoqun mətni iki turistin söhbətindən ibarət olub. Aktyorların vəzifəsi istirahət edənlərin müvafiq xüsusiyyətlərini və tətil zamanı fəaliyyətlərini çatdırmaq, tamaşaçıların vəzifəsi isə yay tətilinin yerini müəyyən etmək idi.

Aşağıdakı mövzularda dialoqlar oynanıldı:

- *"Summer vacation in Germany";*
- *"Summer vacation by the sea";*
- *"Summer vacation in Moscow".*




***Şəkil 3:*** *Akvarium üsulu*

Bu üsul əldə edilmiş biliklərin aktuallaşmasına, möhkəmləndirilməsinə və ümumiləşdirilməsinə, həmçinin şifahi nitq bacarıqlarının formalaşmasına, verilmiş mövzuya münasibətini ifadə etmək bacarığına kömək edir, müstəqilliyi inkişaf etdirir.

Əsas məqsədi həm də şifahi nitq bacarıqlarının formalaşdırılması olan "Qərarlar ağacı" interaktiv metodundan istifadə edərkən Eksperimental Qrup eyni sayda şagirdlə 2 alt qrupa bölündü. Hər qrupa aşağıdakı sual verildi:

*1-ci qrup – What are the disadvantages of summer holidays in the city?*

*2-ci qrup – What are the advantages of summer holidays in the city?*

Müzakirədən sonra şagirdlər sualların cavablarını öz "ağaclarına" (böyük vərəq) yazdılar. Bundan sonra qruplar artıq vərəqdə olanları tənqid etmədən və ya düzəliş etmədən qarşı qrupun "ağaclarına" öz fikirlərini əlavə etmək üçün yerlərini dəyişdilər. Əlavələri tamamladıqdan və "ağacları" bir-birinə qaytardıqdan sonra qruplar bu məsələ ilə bağlı fikirlərini sübut edərək müzakirələr apardılar. Birinci qrup şəhərdə yay tətilinin mənfi tərəflərini təsdiq edən arqumentlər, ikinci qrup isə belə bir tətilin üstünlüklərindən nümunələr gətirdi.



***Şəkil 4:** "Qərarlar ağacı" metodu*

Yuxarıdakıları ümumiləşdirərək qeyd etmək yerinə düşər ki, bu üsul təkcə şifahi nitq bacarıqlarının deyil, həm də müəyyən bir məsələ ilə bağlı öz fikrini ifadə etmək və öz nöqteyi-nəzərini müdafiə etmək bacarığının formalaşmasına töhfə verən bir növ müzakirədir.

Dərsdə geniş istifadə etdiyimiz interaktiv tədris üsullarından biri də "Beyin fırtınası"dır. "Beyin fırtınası" üsulu maksimum sayda şagirdi aktiv işə cəlb etməyə imkan verir. Bu metodun tətbiqi dərsin müxtəlif mərhələlərində mümkündür: yeni biliklərin tətbiqi, biliklərin mənimsənilməsinin keyfiyyətinə aralıq nəzarət, müəyyən bir mövzu üzrə ümumi dərsdə əldə edilmiş biliklərin möhkəmləndirilməsi. "Beyin fırtınası" idrak fəaliyyətini stimullaşdırmaq, həm kiçik, həm də böyük qruplarda şagirdlərin yaradıcılıq bacarıqlarının formalaşdırılması üçün istifadə olunur. Bundan əlavə, öz fikrini ifadə etmək, rəqibləri dinləmək bacarığı formalaşdırır.

Eksperimental qrupdakı şagirdlərə aşağıdakı problem qoyuldu:

- *Thomas does not know where to spend the summer holidays. He has a choice: he can go to the sea or to Germany. Which place is better and why?*

Dialoq rejimində ünsiyyətin mahiyyətinə uyğun gələn eksperimental Qrupda kiçik müzakirədən sonra hər bir iştirakçı öz fikrini bildirdi və

arqumentlər verdi. Bütün bu fikirlər referat şəklində lövhədə qeyd edildi. Bundan sonra ən uğurlu və maraqlı təkliflər seçildi. Bu metoddan istifadə şagirdlərin fəallığını əhəmiyyətli dərəcədə artırdı, çünki bütün şagirdlər müzakirəyə cəlb edildi və iş zamanı hər kəs öz fikirlərini söyləmək və biliklərini nümayiş etdirmək, bu problemin mümkün həlli yolları haqqında düşünmək imkanı əldə etdi.

Beyin fırtınası metodu bir neçə iştirakçının səylərini birləşdirməyi və bir-birinin fikirlərini inkişaf etdirmək imkanını nəzərdə tutur. Bu cür qarşılıqlı əlaqə şagirdlərə nəinki yeni biliklər əldə etməyə, həm də müxtəlif nöqteyi-nəzərləri ölçüb-biçməyə və qiymətləndirməyə, müzakirələrdə iştirak etməyə, birgə qərar qəbul etməyə imkan verir, həmçinin onlara başqalarının fikirlərinə hörmət etməyi öyrədir.

Təcrübəmizin yekun mərhələsində hər iki qrupda ingilis dili dərslərində interaktiv metodlardan istifadənin effektivliyini müəyyən etməyə kömək edən biliklərin nəzarət kəsimi aparıldı. Bu bölmə şifahi nitq bacarıqlarının formalaşdırılmasına dair tapşırıqlar, eləcə də şifahi hissə ilə test şəklində təqdim edilmişdir.

Kontrol qrupunun nəticəsi göstərdi ki, interaktiv metodlardan istifadə sayəsində eksperimental qrup şagirdlərində şifahi nitq bacarıqlarının formalaşması daha yüksək səviyyədədir. Bu qrupların yekun qiymətləndirilməsinin nəticəsi cədvəl 5-də təqdim olunur.

***Cədvəl 5:*** Yekun testin nəticələrinin müqayisəli təhlili

| Xal | Eksperimental qrupun nəticələri | Kontrol qrupunun nəticələri |
|---|---|---|
| "5" | 4 | 3 |
| "4" | 5 | 4 |
| "3" | 1 | 3 |




*Şəkil 5: Eksperimental qrupun nəticələri*




*Şəkil 6: Kontrol qrupunun nəticələri*

Hesab edirik ki, yekun qiymətləndirmə şagirdlərin ingilis dilini öyrənmək prosesinə cəlb olunmasını ən aydın və dəqiq şəkildə göstərir. Bu eksperimentin köməyi ilə sübut etdik ki, interaktiv təlim şagirdlərin şifahi nitqini inkişaf etdirir, təlim prosesinin iştirakçıları arasında emosional əlaqə yaratmağa kömək edir, həm də komandada işləməyi öyrədir. Nəticə etibarilə, interaktiv metodların şagirdlərin şifahi nitq bacarıqlarının formalaşmasına ənənəvi metodlardan daha yaxşı kömək etməsi ilə bağlı fərziyyəmiz təcrübədə öz təsdiqini tapdı.

# NƏTİCƏ

Tədqiqat işi "İngilis dili dərslərində interaktiv metodlardan istifadə etməklə şagirdlərdə şifahi nitqin inkişafı" mövzusunda yazılmışdır. Mövzu ilə bağlı aparılan araşdırmalardan əldə edilən məlumatlar dissertasiya işinin fəsillərində qeyd edilmişdir. Bu məlumatların ümumiləşdirilməsindən konkret olaraq aşağıdakı nəticələrə gələ bilərik:

Dildən ünsiyyət vasitəsi kimi istifadə etmək bu dilə praktik olaraq yiyələnmək deməkdir. Deməli dildən praktik şəkildə istifadə edən şəxs bu dildə danışmaq, oxumaq və oxuduğunu anlamaq, bu dildə dinlədiyini başa düşmək, eləcə də fikirlərini həmin dildə sərbəst şəkildə ifadə etmək kimi bacarıqlara malik olur. Göstərilən bacarıqlardan hər hansısa biri olmasa, bu dil ünsiyyət vasitəsi hesab oluna bilməz.

Şifahi nitq yazılı nitqdən öz ünvan sahibinin təbiətinə görə də fərqlənir. Yazılı nitqdə yazıçı öz oxuyucusunu görmür, onu yalnız öz təsəvvüründə canlandıra bilir. Buna görə də yazılı nitqdə yazıçı öz oxuyucusunun reaksiyasından təsirlənmir.

Şifahi nitq prosesində isə danışan öz dinləyicisini həm görür həm də eşidir. Buna görə də danışan öz dinləyicisinin reaksiyasından təsirlənə bilir. Buna görə də şifahi nitqdə onun dinləyici tərəfindən necə qəbul olunması məsələsi çox önəmlidir. Bütün bunlar şifahi nitqə təsir edə və dinləyənin reaksiyasından asılı olaraq onu dəyişə bilər. Şifahi nitq prosesi zamanı ona hər hansısa bir düzəliş etmək, geri qaytarmaq, üzərində işləmək mümkün olmur. Amma yazılı nitq prosesində yazıçı müəyyən mətni təkmilləşdirə, dəyişdirə, müəyyən düzəlişlər edə bilər.

Psixolinqvistika, dilin psixoloji və linqvistik aspektlərini öyrənir. Psixolinqvistika qısamüddətli və uzun müddətli yaddaş, qavrama strategiyaları və dil modellərinə əsaslanan nitq qavrayışı kimi mövzuları öyrənir. Psixolinqvistikada ən çox işlər uşaqların dil öyrənməsi üzərində aparılmışdır. Dil son dərəcə mürəkkəb quruluşa malik olsa da, uşaqlar onu tez və asanlıqla öyrənə bilirlər. Beləliklə, uşaq dilinin öyrənilməsi idrak və öyrənmə ilə

maraqlanan psixoloqlar və dilin quruluşu ilə maraqlanan dilçilər üçün çox vacib olmuşdur.

Psixologiyaya görə dil ünsiyyət vasitəsi, nitq isə ünsiyyət prosesidir. Dil elə bir məhfumdur ki, o ümumbəşəridir, xalqa məxsus hesab olunur. Nitqə isə daha fərqli aspektdən baxılır. Nitq xalqa yox, ayrı-ayrı şəxslərə, fərdə məxsusdur. Nitq psixoloji proses hesab olunduğu üçün psixologiya elminin tədqiqat obyekti kimi nəzərdən keçirilir.

Bəziləri düşünür ki, dildə olan cümlələri hazır şəkildə öyrətməklə, yəni mexaniki surətdə şagirdlərdə ingilis dilində danışıq bacarıqlarını inkişaf etdirmək olar. Lakin bu çox doğru yanaşma deyildir. Çünki hər hansısa bir xarici dildə şifahi nitq bacarıqlarını inkişaf etdirmək üçün əvvəlcə həmin dilin müxtəlif mühüm aspektləri öyənilməlidir. Elə bu mühüm aspektlərdən biri də dilin qrammatikasıdır. Şagirdlər ingilis dilində yalnız lüğət əzbərləmək, çoxlu sözlər öyrənməklə nə dəqiq şəkildə eşitdiklərini anlaya bilərlər, nə də özləri hər hansısa bir fikrə münasibət bildirə bilərlər. Bunun üçün mütləq şəkildə dilin qrammatik incəliklərinə bələd olmaq lazımdır. Əgər söylənilən fikir qrammatik cəhətdən düzgün qurulmayıbsa, bu hətta mənanın təhrif olunmasına, cümlənin məzmununun dəyişməsinə səbəb ola bilər.

Bir şeyi unutmaq olmaz ki, xarici dil dərsində qrammatika dərsin yeganə məqsədi olmayıb, ümumilikdə xarici dilin öyrənilməsində bir vasitə olmalıdır. Xarici dil üzrə qrammatik material şagirdlərə ana dilində izah olunmalı, hər hansısa bir mövzu, situasiya daxilində təqdim olunmalıdır.

Şagirdlərdə şifahi nitq bacarıqlarını inkişaf etdirmək üçün ən səmərəli yollardan biri də budur ki, oxuduqları mətni, nağılı və yaxud hekayəni öz sözləri ilə nəql edib danışsınlar. Bu zaman şagirdlər həm oxu tapşırığının məzmununu daha dərindən başa düşürlər həm də qrammatik normaları, idiomları, yeni sözləri öz nitqlərində daha da möhkəmləndirirlər. Şifahi nitq bacarıqlarının inkişafı yollarına, həmçinin xarici dildə şeirlərin əzbərlənməsi, oyunlar, sual-cavab və s. də daxildir.

Ölkəmizin sosial-iqtisadi, eləcə də mədəni həyatında və təhsil sahəsindəki davamlı və sürətli inkişafı, cəmiyyət qarşısında bir sıra həlli mühüm məsələlər qoyur. Müasirləşən təhsilimizin qabaqcıl mövqeyinin qorunması, vəzifələrini icra etməsi və tərəqqisi milli-mənəvi, eləcə də üniversal dəyərləri mühafizə edən və təkmilləşdirən, geniş dünyagörüşünə sahib, edilən cəhdlərə və yeniliklərə qiymət verməyi bacaran, elmi-nəzəri və təcrübi biliklərə sahib, müasir düşüncəli və rəqabət aparmağı bacaran kadrların yaradılmasından asılıdır. Bu məqsədlə tədrisdə ən müasir və interaktiv təlim metodlarından istifadə edərək Qərb dövlətlərinin elm və təhsil səviyyəsini ölkəmizə gətirə bilək.

İngilis dilinin tədrisi metodları ilə bağlı aparılmış çoxsaylı araşdırmalar interaktiv təlim metodlarının tədrisdə daha faydalı olduğunu aşkar etmişdir. Dərslərdə şagirdlərin müəllimdən daha aktiv olmasına əsaslanan interaktiv metodlar şagirdlərin öyrənmə motivasiyasını artırır, müstəqil öyrənməni təmin edir, qrupla işləmək bacarıqlarını formalaşdırır. İnteraktiv təlim metodlarında şagirdlər yalnız yeni məlumatlar, biliklər qazanmır, həm də bu bilikləri tətbiq etməyi öyrənir. Nəticə etibarilə, ölkəmizdə təhsil sistemində, əsasən də xarici dilin tədrisində müasir, interaktiv təlim metodlarından istifadə əsas götürülərək, fənn kurikulumlarına da daxil edilmişdir. Lakin hələ də bu metodları tətbiq edə bilən çox az sayda müəllim var və onların təcrübəsi bu metodların şagirdlərin inkişafına müsbət təsir etdiyini sübut edir. Odur ki, xarici dilin tədrisində interaktiv metodlardan istifadəni təmin etmək üçün ali məktəblərdə müəllim hazırlığına ciddi yanşılmalı, onlara müasir metodlardan istifadə bacarıqları aşılanmalıdır.

İnteraktiv metodların təlim prosesində tətbiqi 7 mərhələdə təşkil edilir: 1) motivasiya; 2) tədqiqatın aparılması; 3) məlumat mübadiləsi; 4) məlumatın müzakirə və təşkil edilməsi; 5) ümumiləşdirmələr etməklə nəticə çıxarma; 6) yaradıcı iş; 7) qiymətləndirmə. Bu mərhələlər və onların tətbiq edilmə qaydaları haqqında dissertasiya işinin fəsillərində ətraflı məlumat verilmişdir.

İnteraktiv dərsin təşkil olunması üçün mövcud olan çoxsaylı üsullar müəllimlərin seçim şansını artıraraq, daha effektiv dərs keçməsinə kömək etsə

də, həmçinin hansı üsulun seçilməsi baxımından onlara problem də yarada bilir. İnteraktiv təlim metodlarının sayı olduqca genişdir və onların hər birini təqdim etmək üçün dissertasiyanın həcmi kifayət deyildir. Burada bəhs olunanlar bu metodların sadəcə onda birini təşkil edir desək, yanılmarıq və dissertasiyada ən çox istifadə olunan və istifadə olunması məsləhət görülən metodları araşdıraraq təqdim etməyə çalışdıq. Hər bir metodda olduğu kimi, interaktiv təlim metodları ilə qurulmuş dərs zamanı da müəllim müəyyən problemlərlə üzləşə bilər. Bu səbəbdən də, müəllimlər bu metodu tətbiq etməzdən öncə bu metodla bağlı yarana biləcək problemləri, onların yaranma səbəbləri və həll olunma yollarını araşdıraraq öyrənməli və dərsini elə təşkil etməlidir.

Tədqiqatın sonunda interaktiv təlim üsullarının şagirdlərin şifahi nitqinə təsirini araşdırmaq məqsədlə təşkil edilmiş eksperimental tədrisin nəticələrinin təhlili aparılmışdır. Nəticə etibarilə, interaktiv metodların şagirdlərin şifahi nitq bacarıqlarının formalaşmasına ənənəvi metodlardan daha yaxşı kömək etməsi ilə bağlı fərziyyəmiz təcrübədə öz təsdiqini tapdı.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

### *Azərbaycan dilində:*


1. Abbasova R.A. Aşağı sinif şagirdlərində ingilis dili şifahi nitqinin tədrisinin səmərəli yolları. Bakı – 2017, 68 s.
2. Abbasova Sevinc H. İngilis dili fənninin tədrisi prosesində yeni müasir təlim metodlarından istifadə. Bakı-2005: Adiloğlu, 32 s.
3. Ağayev Ə. Təlim prosesi: Ənənə və müasirlik Bakı: Adiloğlu, 2006, 138 s.
4. Ağayev Ə. Yeni təlimin metod və texnologiyalarından istifadənin nəzəri və praktik məsələləri. ARTPİ-nin elmi əsərləri, 2006, 132 s.
5. Ağazadə N.A. Xarici dillərin tədrisi metodikası və dilçilik. Bakı: 1974, 214 s.
6. Azərbaycan Dillər Universitetinin yaranmasinin 80 illiyinə həsr olunmuş "Xarici Dillərin Tədrisinin Aktual Problemləri" mövzusunda Respublika elmi-praktik konfransinin tezisləri (11-12 may 2017-ci il). Bakı: Mütərcim, 2017, 520 s.
7. Bünyatova F., Abdulla B. Təlim və Tərbiyədə İnteraktiv Texnologiya. Bakı 2000, 85 s.
8. Cəfərov R. Dil dərslərində tədris-təlim prosesində motivasiya və tolerantlıq dəyərlərinin qiymətləndirilməsi. Filologiya məsələləri, No 5, 2019, ss. 143-147
9. Əliyeva Ş. Müasir təhsil sistemində interaktiv təlim metodunun rolu. "Xarici dillərin tədrisinin aktual problemləri" mövzusun-da Respublika elmi-praktiki konfransının tezisləri. Bakı-2017, ss. 54-60
10. Hacizadə H. İnteraktiv təlim metodu ilə keçirilən dərslərin mərhələləri və səciyyəvi xüsusiyyətləri. "Elmi əsərlər". Humanitar elmlər seriyası. 2020, №1(102), II cild ss. 84-87
11. Hüseynzadə G.C. Xarici dillərin tədrisində islahatların tətbiqi: Müəllimyönümlü tədrisdən tələbəyönümlü tədrisə keçid / "Elm" ilinə həsr

olunmuş Xarici dillərin tədrisinin aktual problemləri. II Respublika elmi konfransının materialları. Bakı: ADU, 2009, s.220-226.

**12.**İmamquliyeva G.F. Ümümtəhsil məktəblərinin ingilis dili dərslərində yeni təlim texnologiyalarının istifadə imkanı və yolları: Filol. elm. nam. ... dis. Bakı, 2009, 144 s.

**13.**Kərimov F.H. Şifahi nitqin inkişafı yolları, Bakı, 2002.

**14.**Lodon R. Dillərin qarşılıqlı təsiri (rus dilində). M., 1992, s.1-13

**15.**Mehrabov A.O. Öyrədən və öyrənən münasibətlərinin tənzimlənməsində interaktiv metodların rolu. "Təhsil problemləri" qəz., 2008, s.63-64

**16.**Məmmədov O. Təlimdə interaktiv metod və formaların tətbiqi. Azərbaycan məktəbi: elmi-nəzəri, pedaqoji jurnal, 2013 № 3. ss.56-58

**17.**Musayev O.İ. İngilis dilinin qrammatikası. Bakı – 2007, 587 s.

**18.**Nəzərov A.M. Müasir təlim texnologiyaları. Bakı: ADPU-nəşriyyatı, 2012. 103 s.

**19.**Rzayeva F. Ə. Motivasiya tələbələrdə ingilis dilinə marağın yaradılmasının vasitəsi kimi (dil fakültələrinin I-II kurslarının materialları əsasında): pedaqogika üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya№118 - Bakı: ADU, 2013. - s. 116.

**20.**Sultanov R. Fəal təlim metodlarının səciyyəvi xüsusiyyətləri, onlardan istifadənin imkan və yolları. Elmi əsərlər, ISSN 2409-8817, cild 85, № 6, 2018, ss.71-75

**21.**Şirəliyev Ə.Ş. Dilin mənimsənməsi, Bakı, Mütərcim, 2020, 224 s.

**22.**Şirəliyev Ə.Ş., Nuriyev Y.A. Xarici dillərin tədrisində innovativ vasitələrin rolu. "Xarici dillərin tədrisinin aktual problemləri" mövzusunda Respublika elmi konfransının materialları. Bakı: ADU, 2018, s. 105-106.

**23.** Veysəlli F.Y. Dilin mənimsənilməsinin yeni metodları. "Xarici dillərin tədrisinin aktual problemləri" Respublika elmi-praktiki konfransının materialları. Bakı: Mütərcim, 2016, s. 254-257.

**24.**Veysova Z. Fəal / interaktiv təlim. Bakı - 2007, 156 s.
**25.**Yunusov D.N. Dil: Dünyanın linqvistik transformasiyası / XXI əsr mədəni paradiqmasi multimədəni aspektdə Respublika elmi-praktiki konfrans. Bakı: RS Poliqraf, 2014, s. 91–94

***Rus dilində:***

**26.**Балаев А.А. Активные методы обучения. М., 1986
**27.**Верещагина И.Н., Рогова Г.В. Методика обучения английскому языку. М.: Просвещение, 1998, 232 с.
**28.**Выготский Л.С. Проблема обучения и умственного развития в школьном возрасте. В кн.: Л.С.Выготский. Педагогическая психология. Москва, Педагогика, 1991, 476 с.
**29.**Гасанов И., Рустамова А., Бабаева Н. Куррикулум. Методика. Педагогика. Издательство «Müсrü». Баку-2020, 248 с.
**30.**Гусейнзаде Г.Д. Обучение речевой коммуникации на иностранном языке. Баку: Мутарджим, 2001, 314 с.
**31.**Зильберман Л.И. Лингвистика текста и обучение чтению английской научной литературы. М., 1988. 161 с.
**32.**Зимняя И.А. Психологические аспекты обучения говорению на иностранном языке. М.: Просвещение, 1985, 160 с.
**33.**Зимняя И.А. Психология обучения иностранным языкам в школе. М.: Просвещение,1991, 222 с.
**34.**Исмаилова Д.А. Компетентность преподавателя иностранного языка. / Современные проблемы обучения языкам в высшей школе X Межвузовская научно-практическая конференция. Баку: Poliqrafiya mərkəzi, 2014, с. 263-266
**35.**Исмаилова Д.А. Методика обучения диалогической речи современного английского языка на начальных курсах языковых вузов. Баку: Мутарджим, 2002, 248 с.

**36.**Исмаилова Д.А. Общетеоретические аспекты культуроведческого общения иноязычной коммуникативной практики учащихся// Иностранные языки в Азербайджане, 2007, № 1, с. 55-64.

**37.**Казиева М.Ю. Методологические характеристики речевого общения, существенные для обучения общению на иностранном языке // Иностранные языки в Азербайджане, 2008, № 1-2 (6), с. 45-49

**38.**Колкер Я.М. Методика обучения иностранному языку. М.: Изд-во Просвещение, 2003, 264 с.

**39.**Мамедова Севиндж. Курикулум и педагогика. Баку: RM Nəşriyyatı, 2020, 320 с.

**40.**Маслов Ю.С. Введение в языкознание . - Учебник для филол. и лингв, фак. высш. учеб. заведений / Юрий Сергеевич Маслов. - 4-е изд., стер. - СПб: Филологический факультет СПбГУ; М.: Издательский центр «Академия», 2005. - 304 с.

**41.**Салистра И.Д. Иностранные языки в школе. М., 1993, с.1-5.

**42.**Щерба Л.В. Об общеобразовательном значении иностранных языков / Л.В. Щерба // Вопросы педагогики. – 1926. – Вып. I. – С. 99–105.

**43.**Щерба Л.В. Преподавание иностранных языков в средней школе // Общие вопросы методики. М.: Высшая школа, 1974, 112 с.

### *İngilis dilində:*

**44.**Abdel Meguid Eiman and Collins Matthew. “Students' Perceptions of Lecturing Approaches: Traditional versus Interactive Teaching.” Advances in Medical Education and Practice, vol. 8, 2017, pp. 229–241.

**45.**Abykanova B.N., Nugumanova S., Yelezhanova S., Kabylkhamit Z., Sabirova Z. The use of interactive learning technology in institutions of higher learning. International Journal of Environmental & Science Education, vol. 11 № 18, 2016, pp. 528-539.

**46.** Allwright R.L. The Importance of Interaction in Classroom Language Learning // Applied Linguistics Journal. Oxford: Oxford Univ. Press, 1984, 5/2, p.156 -171

**47.** Blatchford P., Baines E., Rubie-Davies C., Bassett P., and Chowne A. The effect of a new approach to group-work on student-student and teacher-student interaction. Journal of Educational Psychology, 2006, pp.750-765.

**48.** Brown H.D. Principles of language learning and teaching. Longman Publication, 2000, 352 p.

**49.** Canale, M., & Swain, M. Therotical bases of communicative approaches to second language teaching and testing. Applied linguistics, 1, pp.31-36

**50.** Chilwant K. Comparison of two teaching methods, structured interactive lectures and conventional lectures. Biomed Res. 23(3): 2012, pp. 363–366.

**51.** Francisca Sanchez. Interactive classroom strategies and structures for success: Focus on English learners. 2010, 182 p.

**52.** Hymes D. On linguistic theory, communicative competence, and the education of disadvantaged children. In M.L. Wax, S.A. Diamond & F. Gearing (Eds.), Anthropological perspectives on education. New York: Basic Books. pp. 51-66.

**53.** Hymes D.H. On communicative competence. In J. B. Pride & J. Holmes (Eds.), Sociolinguistics: Selected readings. Harmondsworth, England: Penguin, pp. 269–293.

**54.** İsmailova D. A. Teaching English as a foreign language.Textbook: Ministry of Education of The Republic of Azerbaijan Azerbaijan University of Languages. - Baku: Mütərcim, 2011. 313 p.

**55.** Jackson M. Debate: A neglected teaching tool. Peabody Journal of Education. 50(2), 2009, pp.150-154

**56.** Jeremy Harmer. fifth edition. The pracice of english language teaching, 2015. Slovakia, Neographia, 446 p.

**57.**Karimov F., Safiyev A. Methods of teaching English in Azerbaijan. Baku: ADU, 2008, 115 p.

**58.**Kennedy R. Inclass debates: Fertile ground for active learning and the cultivation of critical thinking and oral communication skills. International Journal of Teaching and Learning in Higher Education. 19(2), 2007, pp.183-190

**59.**Lehmann K., Söllner M. Theory-driven design of a mobile-learning application to support different interaction types in large-scale lectures. Twenty Second European Conference on Information Systems. Tel Aviv: 2014, 13 p.

**60.**Oros A. Let's Debate: Active Learning Encourages Student Participation and Critical Thinking. Journal of Political Science Education. 3(-), 2007, pp.292-311.

**61.**Patrick J. and Richard R. Essential learning skills in the education of citizens. New York: Agency for Instructional Television, 1977, 36 p.

**62.**Paula J. Miles. Traditional versus interactive teaching: Out with the old, in with the new? Psychology Teaching Review Vol. 25 No. 2, 2019, 6 p.

**63.**Silverthorn, D. U. Teaching and learning in the interactive classroom. Advances in Physiology Education. VOL 30, 2006, pp.135–140.

**64.**Szabó Ildikó and Lipóczi-Csabai Sarolta. Teaching and Learning Foreign Languages with Interactive Methods. Gradus, 2 (1). 2015, pp. 81-91.

**65.**Tuma, Faiz. "The Use of Educational Technology for Interactive Teaching in Lectures." Annals of Medicine and Surgery, vol. 62, 2021, pp. 231–235.

**66.**Zeynalova S.S. Content and Language Integrated Learning (CLIL) approach. "Tətbiqi dilçiliyin müasir problemləri" mövzusunda III Beynəlxalq elmi konfransının materialları. Bakı: ADU, 2018, s. 170-171.

***İnternet resursları:***


**67.** Ənənəvi və interaktiv təlim metodlarının müqayisəli təhlili // https://aztehsil.com/news/6687-nnvi-v-interaktiv-tlim-metodlarnn-mqayisli-thlili.html

**68.** Fəal dərsin ümumi quruluşu / Dərsin 7 mərhələsi // https://aztehsil.com/kurikulum/503-fal-drsin-mumi-quruluu-drsn-7-mrhls.html

**69.** İnteraktiv təlimdə iş üsulları - əqli hücum // https://aztehsil.com/news/6857-nteraktiv-tlimd-i-sullar-ql-hcum.html

**70.** Tədris prosesində təlim metodlarının tətbiqinə dair Metodiki Tövsiyələr // http://tedris.taxes.gov.az/assets/upload/files/14.%20Tədris%20prosesində%20tlim%20metodlarının%20tətbiqinə%20dair%20Metodiki%20Tövsiyyələr.pdf

**71.** Interactive Techniques. Academy for Teaching and Learning Excellence. University of South Florida // https://www.usf.edu/atle/documents/handout-interactive-techniques.pdf

**72.** Minds matter: Psychology of language learning // https://oupeltglobalblog.com/tag/education-psychology/

**73.** Principles of interactive language teaching // http://edevaluator.org/rivers/10Principles_0.html

**74.** What are the 3Cs? // https://oupeltglobalblog.com/2018/03/27/psychology-language-learning

**75.** http://anl.az/el/Kitab/2016/xn-se1.pdf

**76.** https://coursive.ru/az/vhodyat-li-v-literaturnyi-yazyk-terminy-sovremennyi-i-russkii.html

**77.** https://tahobaza.ru/az/dominantoi-hudozhestvennogo-stilya-yavlyaetsya-osnovnye-cherty-kazhdogo-stilya/

**78.** https://az.socmedarch.org/psycholinguistics-1691700-13703

**79.** https://provost.uni.edu/sites/default/files/documents/teaching_and_learnig_in_the_interactive_classroom.pdf